
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 noyabr
2026-cı il,
çərşənbə
№ 215 (7282)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

Günün mübarək, Kəlbəcər!



Bax səh. 4



Bakının tələbləri əsasında...

Regionda davamlı sülhə doğru addım

Bax səh. 2

Zəngəzur Dəhlizinin yaradılmasında yeni mərhələ

Bax səh. 3

Milli Məclisin iclasında...

Noyabrın 24-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib.

Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova 25 noyabr tarixinin ölkəmizdə Kəlbəcər Şəhəri Günü kimi qeyd olunduğunu bildirib. Onun sözlərinə görə, bu şəhərimizin də erməni işğalından azad edilməsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həm hərbi, həm də diplomatik Zəfərinin nəticəsi olub. Azad edilmiş digər rayonlarımız kimi, bu gün Kəlbəcər də ikinci həyatını yaşayır. Bərpa-quruculuq işləri həyata keçirilir, keçmiş məcburi köçkün soydaşlarımız doğma yurdlarına dönürlər.

S.Qafarova, həmçinin noyabrın 18-dən 20-dək başçılıq etdiyi parlament nümayəndə heyətinin Türkmənistanda işgüzar səfərdə olduğunu xatırladıb. Səfərdə məqsəd MDB Parlamentlərarası Assambleyasının Şura iclasında və 61-ci plenar iclasında iştirak etmək idi. Keçirilən tədbir və görüşlər barədə məlumat verən S.Qafarova bu səfəri uğurlu hesab edib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Zahid Oruc, Ceyhun Məmmədov, Elman Nəsirli, Siyavuş Novruzov, Fazil Mustafa, Razi Nurullayev, Vüqar Bayramov və digərləri müxtəlif aktual mövzularla əlaqədar fikirlərini bildiriblər.

Daha sonra gündəlikdəki məsələlər müzakirə edilib. Əvvəlcə "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "TotalEnergies EP Absheron B.V.", "SOCAR Absheron" və "ADNOC İnternational ProjectCo 1 RSC Limited" şirkətləri arasında dəyişdirilmiş...

Bax səh. 3

TRIPP layihəsinin icrasına start verilib



Yarımçıq qalan həyatların ağrısı...

Bax səh. 4

Rəqəmsal bankçılıq üçün səmərəli platforma

Bax səh. 5

Tom Lantos komissiyasının "son çırpınışları"...

Bax səh. 6

"Şahdəniz"dən sonra ən böyük qaz yatağı

Milli Məclis "Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişi təsdiq edib. Sənədə əsasən, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Fransanın "TotalEnergies EP Absheron B.V", "SOCAR Absheron" və Birləşmiş Ərəb Əmirliklərinin "ADNOC İnternational ProjectCo 1RSC Limited" şirkətləri arasında imzalanmış saziş dəyişdirilib və yeni redaksiyada tərtib olunub.

Qeyd edək ki, "Abşeron" yatağı üzrə ilkin Hasilatın Pay Bölgüsü Sazişi 2009-cu ildə imzalanıb və yataqda kəşfiyyat işləri aparılıb. Kəşfiyyat işləri uğurla nəticələndikdən sonra blokda işlənmə və hasilat proqramı 2017-ci ildə qəbul edilib. 2023-cü ildə yataqda hasilata başlanılıb və həmin il quyudan illik qaz hasilatı 1.5 milyard kubmetr təşkil edib. 2024-2025-ci ildə isə hasilat 2 milyard kubmetrə bərabər olub.

Beləliklə, "Abşeron" blokunda yeni hasilat - tammiqyaslı emal-nəql işlərinin başlanması üçün beynəlxalq konsorsiumlar tərəfindən birgə sərmayə planına start verilmiş olur.

"Abşeron" yatağı Azərbaycanın enerji strategiyasında mühüm yer tutan əsas karbohidrogen mənbələrindən biridir. Bu yataq Cənub Qaz Dəhlizinin və onun mühüm tərkib hissəsi olan Trans-Adriatik Boru Kəmərinin (TAP) ən perspektivli bloklarından sayılır. Ehtiyatların həcminə görə, "Şahdəniz"dən sonra Azərbaycanın ikinci böyük yatağıdır. Hazırda "Abşeron" qaz-kondensat yatağından hasil edilən qaz dənizdəki 140 kilometrlik boru kəməri vasitəsilə Səngəçal terminalına nəql olunur, ordan isə həm Azərbaycanın daxili bazarına, həm də mövcud qaz nəqli infrastrukturu ilə Türkiyə və Avropa bazarlarına yönləndirilir. Yataqda 350-360 milyard kubmetr...

Bax səh. 5



Makronun büdcə təşəbbüsü tənqid edilib


Bax səh. 6



BREXİT-dən sonra Avropanın yeni istiqaməti

Bax səh. 7

Prezident İlham Əliyev Monteneqronun Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Monteneqronun Baş naziri Miloyko Spayiçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanla Monteneqronun uzun illərdir dost və tərəfdaş olduğunu deyərək, ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin qurulduğunu qeyd etdi.

Dövlətimizin başçısı gələn il Monteneqro Prezidentinin ölkəmizə rəsmi səfər edəcəyini bildirdi və vurğuladı ki, bütün bunlar siyasi, iqtisadi, investisiya, həmçinin bir çox digər sahələrdə əlaqələrimizin inkişafında müsbət dinamikanın olduğunu və yaxşı nəticələrin əldə edildiyini göstərir.

Prezident İlham Əliyev Baş nazirin səfərinin uğurlu keçəcəyinə və ikitərəfli əməkdaşlığımızın gücləndirilməsinə mühüm töhfə verəcəyinə əminliyini bildirdi.

Bakıda olmaqdan məmnunluğunu ifadə edən Baş nazir Miloyko Spayiç öz növbəsində iki ölkənin uzun müddətdir müxtəlif formatlarda dost və tərəfdaş olduğunu vurğuladı. Azərbaycanla əlaqələri inkişaf etdirməkdə maraqlı olduqlarını deyən qonaq münasibətlərimizin yaxşı perspektivlərə malik olduğunu qeyd etdi.

Miloyko Spayiç Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə əlaqədar əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu dedi və vurğuladı ki, ölkəmiz bölgədə davamlı sülhün, sabitliyin möhkəmləndirilməsi üçün səylərini bundan sonra da davam etdirəcək.

Baş nazir Azərbaycanın Monteneqroya böyük sərmayələr yatırdığını deyərək, bunun ölkə iqtisadiyyatına müsbət təsir göstərdiyini bildirdi.



Görüşdə Azərbaycanın Monteneqroda həyata keçirdiyi investisiya layihələrinin gələcəkdə genişləndirilməsi üçün imkanların olduğu da qeyd edildi.

Miloyko Spayiç qarşılıqlı turist axınına toxunaraq bildirdi ki, çoxsaylı azərbaycanlı turistlər Monteneqroda, Monteneqro turistləri isə Azərbaycanda özlərini rahat hiss edirlər.

Qonaq bütün bunlara görə dövlətimizin başçısına minnətdarlığını ifadə etdi.

Söhbət zamanı infrastruktur layihələri, enerji təchizatı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev Gürcüstanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvilini qəbul edib.



AZƏRTAC xəbər verir ki, qonaq Gürcüstanın Prezidenti Mixeil Kavelaşvilinin və Baş nazir İrakli Kobaxidzenin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycan Prezidentinin 2026-cı ilin aprelində Gürcüstana dövlət səfəri məmnunluqla xatırlandı, səfər çərçivəsində yaxşı nəticələrin əldə olunduğu vurğulandı.

Xalqlarımız arasında əbədi dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğu qeyd edildi və bundan irəli gələrək bu gün Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyi bildirildi.

İkitərəfli gündəlikdə duran məsələlərin müzakirəsi və əlaqələrimizin genişləndirilməsi baxımından müntəzəm olaraq həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətinə, həmçinin bu yaxınlarda keçirilmiş hökumətlərarası komissiyanın iclasına toxunuldu.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlərin Gürcüstan tərəfindən alqışlandığını bildirdi.

Cənubi Qafqaz regionunda mövcud sabitliyin önəmi qeyd edildi, Azərbaycanda və Gürcüstanda, həmçinin daha geniş regionda hökm sürən sabit vəziyyətin ölkələrimizin inkişafında rolu vurğulandı.

Bakı-Tbilisi-Qars dəmir yolunun yükaşırma qabiliyyətinin artması məmnunluqla qeyd edilərək, bu nəqliyyat dəhlizinin, həmçinin Azərbaycanın və Gürcüstanın birgə həyata keçirdiyi müxtəlif bağlantı layihələrinin əhəmiyyətinə toxunuldu.

Prezident İlham Əliyev regional məsələlərdə hər zaman inklüziv yanaşmanın olmasının vacibliyini vurğuladı. Bu xüsusda Azərbaycanın və Gürcüstanın regionda birgə səylərlə həyata keçirdiyi Orta Dəhliz layihəsinin artıq funksional olduğu vurğulandı və bu xətlə daşımaların mütəmadi əsasda artdığı bildirildi.

Bu yaxınlarda imzalanmış "Azərbaycan Respublikası, Bolqarıstan Respublikası, Gürcüstan və Türkiyə Respublikası hökumətləri arasında təmiz enerji



sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in, həmçinin Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan elektrik xətti layihəsinin önəmi qeyd edildi.

Söhbət zamanı Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Məşvərət Görüşü formatına tamhüquqlu üzv qəbul edildiyi xatırlanaraq, Gürcüstanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrinin genişlənməsinin regional əməkdaşlığın inkişafı baxımından vacibliyi bildirildi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Ermənistanın yeni Konstitusiya layihəsi...

Bakının tələbləri əsasında...

Regionda davamlı sülhə doğru addım

Ermənistanın yeni Konstitusiya layihəsinin ictimaiyyətə təqdim olunması Bakının müəllifliyi ilə Cənubi Qafqazda formalaşan yeni siyasi reallıqlar və regional münasibətlər sisteminin yeni mərhələsi baxımından vacib bir məsələdir. Noyabrın 23-də Ermənistanın baş naziri Nikol Paşinyanın göstərişi ilə dərc olunan sənəd təkcə Ermənistanın daxili siyasi və hüquqi sisteminin yenilənməsi cəhdi deyil, həm də Azərbaycanla münasibətlərdə uzun illərdir davam edən münaqişə məntiqindən uzaqlaşmaq istiqamətində atılan addım kimi qiymətləndirilə bilər. Çünki iki ölkə arasında davamlı sülhün əldə olunması üçün siyasi bəyanatlarla yanaşı, qarşılıqlı ərazi iddialarına hüquqi əsas verə biləcək müddəaların da aradan qaldırılması vacibdir. Məlumdur ki, Azərbaycanın sülh gündəliyində Ermənistan Konstitusiyasının və müstəqilliklə bağlı hüquqi sənədlərinin ölkəmizə qarşı ərazi iddiaları ehtiva edən müddəalardan təmizlənməsi mühüm şərtlərdən biri olub. Xatırladaq ki, 1990-cı il Müstəqillik Bəyannaməsində Qarabağın Ermənistanla birləşdirilməsinə dair müddəa iki dövlət arasında münasibətlərin normallaşması qarşısında hüquqi-siyasi maneə kimi çıxış edirdi. İndi təqdim olunan yeni layihədə həmin Bəyannaməyə istinadın preambuladan çıxarılması diqqət çəkən əsas dəyişiklikdir. Paralel olaraq Konstitusiya layihəsinin dərci qlobal dünyaya da bir mesaj xarakteri daşıyır

Azərbaycanın prinsipial tələbi yerinə yetirilir

Vurğulandığı kimi, yeni Konstitusiya layihəsinin Azərbaycan-Ermənistan münasibətləri baxımından ən mühüm yeniliyi preambulada 1990-cı il Müstəqillik Bəyannaməsinə istinadın aradan qaldırılmasıdır. Preambulada Ermənistanın müstəqil, sülhpərvər, təhlükəsiz və firavan dövlət qurmaq, bunu beynəlxalq səviyyədə tanınmış ərazisi daxilində həyata keçirmək məqsədi ön plana çəkilir. Burada diqqətçəkən məqam yalnız əvvəlki sənədə istinadın çıxarılması deyil, dövlətin gələcək inkişafının beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində müəyyənləşdirilməsidir. Bu, Ermənistanın dövlətçilik fəlsəfəsində yeni siyasi istiqamətin formalaşdırılması cəhdi kimi qiymətləndirilə bilər.


Baş nazir Nikol Paşinyan da çıxışlarında yeni Konstitusiyanın əvvəlki münaqişə məntiqindən uzaqlaşmanı ifadə etdiyini bildirib. Digər vacib məqam isə bu dəyişikliyin Konstitusiyanın digər müddəalarında və dövlət siyasətində necə əks olunacağıdır - Bakı üçün vacib olan Ermənistanın hər hansı sənədində ölkəmizə qarşı ərazi iddialarının hüquqi və siyasi əsasının qalmamasıdır. Buna görə də layihənin qəbul edilməsi Azərbaycanın sülh gündəliyində irəli sürdüyü prinsipial tələbin nəzərə alınması istiqamətində əhəmiyyətli addımdır.



Layihənin Azərbaycan üçün əhəmiyyət kəsb edən digər mühüm tərəfi xarici siyasətin məqsədinin konstitusion səviyyədə müəyyənləşdirilməsidir. Sənədin 8-ci maddəsində Ermənistan Respublikasının xarici siyasətinin məqsədinin sülhün təmin edilməsi olduğu göstərilir. Bu müddəa ilk baxışdan ümumi siyasi prinsip təsiri bağışlasa da, Ermənistanın əvvəlki dövlətçilik yanaşması ilə müqayisədə ciddi məna dəyişikliyini ifadə edir. Çünki uzun illər regionda qarşıdurma, ərazi iddiaları və güc balansı üzərində qurulan siyasi yanaşma Cənubi Qafqazın inkişafına mane olub, Ermənistanın yürütdüyü işğalçı, təcavüzkar siyasət bu ölkənin özünün də iqtisadi və siyasi imkanlarını məhdudlaşdırıb.

Paşinyan yeni Konstitusiyanın təqdimatı zamanı bu dəyişikliyi açıq şəkildə əsaslandıraraq Ermənistanın münaqişə məntiqindən uzaqlaşmalı olduğunu bildirib. Onun sözlərinə görə, ölkə səngərlər məkanından sülh kəsişməsinə çevrilməli, eyni zamanda beynəlxalq səviyyədə tanınmış ərazisinin və sərhədlərinin toxunulmazlığını müstəqil müdafiə edə bilən dövlət olmalıdır. Bu yanaşma göstərir ki, İrəvanın qarşısında duran əsas vəzifə təhlükəsizliyi ərazi iddiaları və regional qarşıdurma üzərində deyil, dövlətlərarası münasibətlərin hüquqi əsasları və iqtisadi əməkdaşlıq üzərində qurmaqdır.

Ermənistanın yeni dövlətçilik yanaşması



Azərbaycanın mövqeyi və irəli sürdüyü tələblər də məhz bu reallığa əsaslanır. Bakı dəfələrlə bəyan edib ki, Cənubi Qafqazda davamlı sülhün təmin olunması qarşılıqlı suverenliyin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərin toxunulmazlığının tanınmasından keçir. Bu baxımdan Ermənistanın xarici siyasətdə sülhü əsas məqsəd kimi təsbit etməsi müsbət siyasi siqnaldır. Lakin konstitusion bəyanatların real siyasətə çevrilməsi daha vacibdir. Ermənistan bundan sonra qonşularına münasibətdə hansı siyasi xətt yürüdəcək, regional kommunikasiyaların açılmasına, iqtisadi əlaqələrin genişlənməsinə və qarşılıqlı etimadın möhkəmlənməsinə necə yanaşacaq? Bu sualların cavabı yeni yanaşmanın həqiqiliyini müəyyən edəcək. Sülh yalnız Konstitusiyada yazılan prinsip deyil, gündəlik dövlət siyasətində nümayiş etdirilən məsuliyyət olmalıdır.

Digər tərəfdən, Ermənistan müxalifətinin bir hissəsi yeni Konstitusiyanı xarici təzyiqlərin nəticəsi kimi təqdim edir və sənədə qarşı çıxır. Ancaq Ermənistan cəmiyyəti anlamalıdır ki, keçmişin qarşıdurma siyasətinə qayıtmaq ölkəyə yeni imkanlar qazandırmayacaq. Azərbaycanla münasibətlərin normallaşması, regional əməkdaşlıq, nəqliyyat-kommunikasiya xətlərinin açılması və iqtisadi inkişaf Ermənistan üçün də mühüm perspektivlər yaradır.

Azərbaycan baxımından isə əsas məsələ layihənin hansı siyasi şüarlar altında təqdim olunması deyil, onun real hüquqi nəticələridir. Konstitusiya dəyişikliyi ilə yanaşı, sülh müqaviləsinin imzalanması, ratifikasiyası və qarşılıqlı öhdəliklərin yerinə yetirilməsi vacibdir. Paşinyan da yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanla sülh sazişinin imzalanıb ratifikasiya ediləcəyinə və davamlı sülhün təmin olunacağına əminliyini ifadə edib. Deməli, indi Ermənistanın qarşısında seçim dayanır: ya tarixi qarşıdurma səhifəsini bağlayaraq yeni regional reallıqlara uyğunlaşmaq, ya da revanşist qüvvələrin təsiri altında gələcəyini yenidən qeyri-müəyyənliyə sürükləmək.

Pərviz SADAYOĞLU

5 istiqamətə ünvanlanan siyasi mesajlar...

Ermənistanın yeni Konstitusiya layihəsi təkcə ölkənin hüquqi-siyasi sistemində dəyişiklik cəhdi deyil, həm də müxtəlif ünvanlara hesablanmış mühüm siyasi mesajdır. Bu sənədin mahiyyəti onun ayrı-ayrı müddəalarından daha geniş məzmun daşıyır. Layihə Ermənistanın gələcək siyasi kursu, Azərbaycanla münasibətləri, regional təhlükəsizlik və sülh prosesinə yanaşması baxımından müəyyən mövqenin ifadəsidir.

1. Ermənistanın revanşist müxalifətinə mesaj. Layihənin ilk ünvanı Ermənistan daxilində əvvəlki siyasi kursun bərpasına çalışan revanşist qüvvələrdir. 1990-cı il Müstəqillik Bəyannaməsinə istinadın yeni Konstitusiyanın preambulasından çıxarılması Qarabağın Ermənistana birləşdirilməsi ideyasının hüquqi-siyasi əsas kimi saxlanılmasından tam imtina deməkdir. Bununla Paşinyan iqtidarı revanşist düşərgəyə göstərir ki, Ermənistanın gələcəyi keçmiş münaqişə və ərazi iddiaları üzərində qurula bilməz.

2. Ermənistan cəmiyyətinə mesaj. Yeni Konstitusiya erməni cəmiyyətinə seçim təklifidir: keçmişin münaqişə və qarşıdurma məntiqi, yoxsa beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində təhlükəsiz və firavan dövlət quruculuğu? Burada əsas məqsəd ictimai düşüncədə dəyişiklik yaratmaq, müharibə psixologiyasından sülh və inkişaf yanaşmasına keçidi təmin etməkdir. Yəni cəmiyyətə izah olunur ki, davamlı sabitlik ərazi iddialarından deyil, dövlətçiliyin möhkəmləndirilməsindən keçir.

3. Sülhü istəyən qlobal güclərə mesaj. Layihə Ermənistanın beynəlxalq ictimaiyyət qarşısında sülhə siyasi iradəsini nümayiş etdirmək cəhdidir. Xüsusilə ABŞ-ın vasitəçiliyi ilə Vaşinqtonda əldə edilmiş razılaşmaların davamlı sülhə çevrilməsi baxımından bu addım mühüm əhəmiyyət daşıyır. İrəvan göstərir ki, regional sabitlik naminə öz qanunvericilik bazasında zəruri dəyişikliklərə getməyə hazırdır. Bu, Ermənistanın beynəlxalq etimad qazanmaq və yeni əməkdaşlıq imkanlarına yol açmaq istəyidir.

4. Sülhə mane olmağa çalışanlara mesaj. Konstitusiya layihəsi münaqişənin davam etməsində maraqlı olan qüvvələrə də ünvanlanıb. Ərazi iddialarının konstitusion müstəvidən çıxarılması revanşist planların siyasi-hüquqi dayaqlarını zəiflədir. Bununla göstərilir ki, regionun gələcəyini xarici müdaxilələr, müharibə çağırışları və geosiyasi qarşıdurmalar deyil, suveren dövlətlərin qarşılıqlı razılaşmaları müəyyən etməlidir.

5. Erməni lobbisinə mesaj. Bu sənəd dünya ermənilyinə də ciddi siyasi seçim qarşısında olduğunu göstərir. Ermənistanın gələcəyi diasporun tarixi iddiaları və emosional çağırışları əsasında deyil, ölkənin real milli maraqları ilə müəyyənləşməlidir. İrəvan dolayısı ilə bildirir ki, Ermənistanın təhlükəsizliyi və inkişafı naminə keçmişin iddialarından imtina etmək zəruridir. Beləliklə, layihə yalnız daxili hüquqi dəyişiklik deyil, erməni siyasi düşüncəsində yeni mərhələyə keçid cəhdidir.

Referendum: Sülhə münasibətin siyasi sınağı...

Ermənistanın yeni Konstitusiya layihəsinin hazırlanması və ictimaiyyətə təqdim edilməsi isə hələ prosesin başa çatması demək deyil. Əksinə, sənədin qarşıda keçməli olduğu ən ciddi mərhələ onun parlamentdə dəstəklənməsi və ümumxalq referendumunda qəbul edilməsidir. Məhz bu mərhələdə Ermənistan siyasi elitasının və cəmiyyətinin sülhə münasibəti, münaqişə keçmişindən uzaqlaşmaq iradəsi özünü göstərəcək.

Paşinyanın açıqlamasına görə, hakim "Vətəndaş Müqaviləsi" partiyasının parlamentdə referendumun keçirilməsi ilə bağlı qərarı qəbul etdirmək üçün altı səsi çatmır. Baş nazir müxalifətə layihənin referenduma çıxarılmasına dəstək vermək çağırışı edib. O, hətta siyasi məsuliyyətini bu proseslə əlaqələndirərək Konstitusiya referendumda qəbul edilməyəcəyi təqdirdə istefa verəcəyini, qəbul ediləcəyi halda isə növbəti parlament seçkilərində baş nazirliyə namizəd olmayacağını bəyan edib. Bu, məsələnin Paşinyan hakimiyyəti üçün nə qədər ciddi siyasi əhəmiyyət daşıdığını göstərir.

Beynəlxalq Qafqaz Konqresinin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Sizi İğdır Universitetinin təşkilatçılığı ilə "İpək Yolunun yenidən dirçəlişi" mövzusuna həsr olunmuş Beynəlxalq Qafqaz Konqresinin işə başlaması münasibətilə səmimi-qəlbdən salamlayıram.

Tarix boyu mühüm ticarət yolları üzərində yerləşən İğdır bu gün də özünün əlverişli mövqeyini qoruyaraq regional əməkdaşlığın inkişafına töhfə verməyə davam edir. İğdırın Naxçıvanla birbaşa qonşuluğu, bölgələr arasında tarixən mövcud olan sıx təmaslar və qarşılıqlı rəğbət qardaş xalqlarımızı bir-birinə daha da yaxınlaşdıraraq Azərbaycan-Türkiyə əməkdaşlığının möhkəmlənməsinə və regional bağlılığa xidmət edir.

Ortaq soy-kökə və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri tarixi Şuşa Bəyannaməsi ilə ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qalxdı. Fəxrlə qeyd edə bilərik ki, üstün coğrafi mövqeyi ilə Avropa və Asiya arasında körpü rolunu oynayan ölkələrimizin birgə həyata keçirdiyi nəhəng layihələr Cənubi Qafqazın və ümumilikdə bütün Avrasiya regionunun nəqliyyat, enerji və bağlantı xəritəsini yenidən tərtib etdi.

Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar edilməsi bu regionu beynəlxalq nəqliyyat dəhlizləri və iqtisadi əməkdaşlıq baxımından mühüm strateji əhəmiyyətə malik məkana çevirmişdir. Azərbaycanın təşəbbüsü ilə hazırda reallaşdırılan Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqəni təmin etməklə yanaşı, Türkiyə ilə birbaşa quru nəqliyyat əlaqələrimizin genişlənməsinə, eyni zamanda, Orta Dəhlizin imkanlarının artırılmasına, beynəlxalq ticarət və logistika əlaqələrinin inkişafına və daha geniş mənada tarixi İpək Yolunun dirçəldilməsinə xidmət edəcəkdir.

İnanıram ki, Beynəlxalq Qafqaz Konqresi regionumuzun gələcək inkişaf perspektivlərinin, İpək Yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma olacaq, bölgədə sülhün, sabitliyin, qarşılıqlı etimadın möhkəmləndirilməsinə və dayanıqlı inkişafın təmin edilməsinə öz töhfəsini verəcəkdir.

Bütün iştirakçılara səmərəli müzakirələr və tədbirin işinə uğurlar arzulayıram.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 24 noyabr 2026-cı il

Zəngəzur Dəhlizinin yaradılmasında yeni mərhələ

TRIPP layihəsinin icrasına start verilib



Artıq Zəngəzur Dəhlizi (TRIPP marşrutu) ilə bağlı müzakirələr mərhələsi arxada qalıb. Təxminən 42 kilometrlik beynəlxalq əhəmiyyətli marşrutun yaradılmasının hüquqi çərçivələrinin müəyyənləşdirilməsi işləri yekunlaşdırılaraq noyabrın 23-də onun Ermənistan və Amerika Birləşmiş Ştatları (ABŞ) tərəfindən praktiki müstəvidə icrasına start verilib. Bununla bağlı ABŞ Prezidenti Donald Tramp videomüraciət yayıb.

Öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyev TRIPP layihəsinin başlanması münasibətilə ona ünvanladığı xoş sözlərə görə ABŞ Prezidenti Donald Trampa təşəkkür edib. Bu barədə Prezident İlham Əliyevin "X" hesabında paylaşım edilib.

Paylaşımda deyilir: "Hörmətli Prezident Donald Tramp,

Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin başlanması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi minnətdarlığımı bildirmək istəyirəm".

Vaşinqtonda təməli qoyulan TRIPP layihəsi qalib Azərbaycanın təşəbbüsüdür

Artıq icrasına start verilən TRIPP marşrutunun əsası 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin iştirakı ilə Ağ Evdə - dünyanın bir nömrəli ofisində baş tutan görüşdə qoyulub. Görüş çərçivəsində aparılan müzakirələrin ən mühüm nəticələrindən biri məhz regionda kommunikasiyaların blokdan çıxarılmasının razılaşdırılmasıdır. Bununla bağlı liderlərin imzaladığı Birgə Bəyanatda konkret müddəalar yer alıb. Dünyanın siyasi, iqtisadi və hərbi güc mərkəzi sayılan ABŞ-nın Prezidenti D.Trampın şahidliyi ilə imzalanan sənəddə oxuyuruq: "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".



Vaşinqtonda əsası qoyulan TRIPP marşrutunun yaradılması təşəbbüsü qalib Azərbaycana məxsusdur. Əvvəla, İkinci Qarabağ müharibəsində qazanılan Zəfərlə respublikamızın yaratdığı yeni reallıqlar regionda sülh prosesinin başlaması və bu çərçivədə bəhs olunan layihənin reallaşdırılması üçün zəmin formalaşdırıb. Eyni zamanda, Prezident İlham Əliyev siyasi qətiyyət və uzaqgörənlik nümayiş etdirməklə müharibənin başa çatmasını bildirən üçtərəfli bəyanata yeni marşrutun yaradılması ilə bağlı müvafiq müddəanın salınmasına nail olub. Sonrakı mərhələdə isə qalib Azərbaycan Ermənistanın manipulyasiyalarının qarşısını almaqla sülh prosesini və kommunikasiyaların açılması ilə bağlı təşəbbüsünü Vaşinqton görüşünədək irəlilətməyə nail olub.

Vaşinqton görüşündən sonra Zəngəzur Dəhlizinin yaradılması ilə bağlı hüquqi çərçivələr müəyyənləşdirilib. Xüsusilə də cari ilin may ayında ABŞ Dövlət katibi Marko Rubionun Ermənistana baş tutan səfəri çərçivəsində TRIPP layihəsi üzrə strateji əməkdaşlıq haqqında çərçivə sazişinin paraflanmas Zəngəzur Dəhlizinin yaradılmasında yeni bir mərhələ açıb. Bundan sonra Ermənistan parlamenti 28 oktyabr 2026-cı il tarixində 63 deputat lehinə, 32 deputat əleyhinə olmaqla ABŞ ilə "Beynəlxalq Sülh və Rifah üçün Tramp marşrutu" layihəsi üzrə strateji əməkdaşlıq çərçivə sazişini ratifikasiya edib.

Eyni zamanda, layihənin həyata keçirilməsi üçün "TRIPP Development Company" (Tramp Marşrutunun operatoru) şirkəti yaradılıb. Müvafiq razılaşmaya əsasən, Ermənistan layihənin inkişaf etdirilməsi hüququnu 49 il ərzində bu şirkətə verib. Şirkətin səhmlərinin 74 faizi ABŞ-nin, 26 faizi isə Ermənistanın payına düşür. Razılaşmanın daha 50 il uzadılmasından sonra Ermənistanın payı 49 faizə qədər artacaq. Həmçinin, səhmdarların strukturunda və ya son benefisiarlarda hər hansı dəyişiklik üçün ABŞ və Ermənistan hökumətlərinin əvvəlcədən razılığı tələb olunur.

TRIPP-in inkişafı üzrə şirkət multimodal infrastrukturun planlaşdırılması, tikintisi, istismarı və xidməti, xüsusi layihə şirkətlərinin yaradılması, podratçılar və operatorlarla müqavilələrin bağlanması, gəlirlərin toplanması və generasiyası, eləcə də TRIPP marşrutunun idarə edilməsi üçün müstəsna hüquqa malikdir.

Əməliyyat şirkəti tərəfindən idarə olunacaq mümkün obyektlərə bunlar daxildir: dəmir yolu infrastrukturu, avtomobil yolları, körpülər və tunellər, enerji və rəqəmsal infrastruktur (fiber-optik kabellər), həmçinin köməkçi obyektlər və təhlükəsizlik sistemləri.

Razılaşmaya əsasən, şirkətin gəlir mənbəyi təmin edilən infrastruktura çıxış haqqı, kommersiya fəaliyyəti, icarə, xidmət haqları və digər mənbələr olacaq. Şirkət "front office-back office" modelində fəaliyyət göstərəcək. "Front-office" sənədlərin qəbulu və yoxlanılması, informasiya dəstəyi, vəsaitlərin toplanması (vergilər birbaşa Ermənistan büdcəsinə köçürüləcək) və inzibati məsələlər ilə məşğul olacaq.

Öz növbəsində, Ermənistanın dövlət orqanlarından ibarət "back-office" son gömrük qərarlarını verəcək, təhlükəsizlik nəzarətini təmin edəcək, miqrasiya nəzarəti, yoxlamalar həyata keçirəcək və icazələr verəcək.

İndiki regional və qlobal reallıqlar şəraitində TRIPP marşrutunun artan önəmi

Regional və qlobal miqyasda yaranan yeni reallıqlar fonunda Zəngəzur Dəhlizinin önəmi daha da artır. Ekspertlər də Ağ Evin TRIPP marşrutu ilə bağlı fəallığını hazırkı geosiyasi və geoiqtisadi reallıqlar fonunda ABŞ-ın Cənubi Qafqaz regionunda, o cümlədən də Orta Dəhlizdə (Transxəzər marşrutu) artan marağı ilə əlaqədar olduğunu bildirirlər. Hazırda Şərqi Avropada Rusiya ilə Ukrayna arasında uzanan müharibə, Yaxın Şərqdəki gərginlik qlobal miqyasda təhlükəsiz bağlantıların önəmini heç vaxt olmadığı qədər artırıb. Xüsusilə də Hörmüz boğazında vəziyyətin qeyri-müəyyən qalması, burada su yolu ilə daşımaların məhdudlaşdırılması qlobal iqtisadiyyatda təchizat zəncirini pozub, bazarlarda neft və qaz qiymətləri artıb, aqrar sektorda kəskin karbamid qıtlığı yaşanır. Müşahidə edilən bu və ya digər proseslər dünya dövlətlərini alternativlər axtarışına sövq edir. Zəngəzur Dəhlizi Orta Dəhlizin yeni bir seqmentini təşkil edəcək. Azərbaycanın da fəal üzvlərdən biri olduğu Transxəzər marşrutu hazırda dünyanın ikinci böyük iqtisadiyyatı sayılan Çinlə Avropa arasında etibarlı bağlantını təmin edir. Lakin təhdid riskləri ilə üz-üzə qalan bir sıra ənənəvi marşrutların funksionallığının azalması fonunda Orta Dəhlizin yüklənməsinin getdikcə artması müşahidə edilir. Belə olan halda şaxələnmənin zəruriliyi ön plana keçir. TRIPP marşrutu məhz bu şaxələnməni təmin edəcək. Belə ki, Mərkəzi Asiyadan Azərbaycana ötürülən yüklər Gürcüstan istiqaməti ilə paralel şəkildə, Azərbaycanın əsas hissəsindən keçməklə Ermənistan və Naxçıvan üzərindən Türkiyəyə, oradan isə Avropaya çatdırılacaq. Bu marşrutda moderatorluğun təmin edilməsi ABŞ-a böyük iqtisadi və siyasi dividendlər vəd edir.

Razılaşmaya əsasən, Birləşmiş Ştatların layihənin həyata keçirilməsindən əldə edəcəyi faydalar bunlardır:

-ABŞ investisiyaları, biznesi və malları üçün yeni bazarların açılması;

-Xammal, kritik minerallar və nadir torpaq metallarının ABŞ bazarlarına tədarükü üçün ticarət əlaqələrinin təmin edilməsi;

-ABŞ, Avropa və Asiya arasında ticarət marşrutlarının sayının artırılması, geosiyasi dəyişikliklərdən asılı olmayaraq insanların və malların hərəkətinin təmin edilməsi və s.

Yeni marşrutun girişi və çıxışı Azərbaycandan keçir

İcrasına start verilən TRIPP marşrutu regional və qlobal bağlantını təmin edəcək. O cümlədən Mərkəzi Asiya dövlətləri üçün yeni tranzit imkanları açılacaq. Rusiya və İranın Şimal-Cənub marşrutundan asılılığı azalacaq. Qeyd edək ki, respublikamızın ərazisində Şimal - Cənub marşrutu ilə Orta Dəhlizin bağlantısı təmin edilib. Beləliklə də İran və Rusiya da yeni marşrutdan faydalana biləcəklər. Qardaş Türkiyə üçün daha böyük həcmlərdə yük tranzitini həyata keçirmək imkanları yaranacaq.

Zəngəzur Dəhlizinin yaradılması Ermənistan üçün də həyati əhəmiyyət daşıyır. Bu ölkə 30 il ərzində işğalçılıq siyasətinin girovluğunda qalıb və əslində dalan vəziyyətdə düşüb. Hazırda Ermənistanın geniş dünyaya çıxışı yalnız dar Lars keçid məntəqəsi və İran üzərindəndir. Lars keçid məntəqəsi daşımalar üçün optimal marşrut sayıla bilməz. Çünki xüsusilə də qış aylarında buradakı dağ silsilələrindən keçmək mümkünsüz hala gəlir və keçid bağlanır. Həmçinin yenə də geosiyasi amillərə və infrastruktur məhdudluğuna görə İran üzərindən keçən yollar da əlverişli deyil. TRIPP marşrutunun yaradılması ilə Ermənistanla Türkiyə arasında məlum səbəblərdən bağlı olan sərhədlər açılacaq və bu ölkənin Avropaya asan çıxışı təmin olunacaq.

Əsas məsələlərdən biri isə heç şübhəsiz ki, TRIPP marşrutunda Azərbaycanın maraqlarının təmin edilməsidir. Əvvəla, Şimal-Cənub, Şərq-Qərb marşrutlarında olduğu kimi, Zəngəzur Dəhlizində də əsas bağlayıcı ölkə qismində Azərbaycan çıxış edir. Yeni marşrutun girişi və çıxışı məhz respublikamızın ərazisindən keçir. Bu isə o anlama gəlir ki, Azərbaycanın iştirakı olmadan TRIPP marşrutundan bəhs etmək də əbəsdir.

Lakin məsələ yalnız ölkəmizin əlverişli coğrafi yerləşməsi ilə bağlı deyil. Burada söhbət ilk növbədə Vaşinqtonda imzalanan sənəddə də vurğulandığı kimi, Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsindən gedir. Bu müddəa Azərbaycan üçün prinsipial önəm daşıyır. Respublikamız bəhs olunan məsələdə təkid etməkdə tam haqlıdır. Naxçıvan Muxtar Respublikiası Azərbaycanın ayrılmaz hissəsidir. Bu bölgə Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamıza qarşı başladığı işğalçılıq siyasətinə görə blokada şəraitinə düşdü. Artıq 30 ildən çoxdur ki, Naxşıvan əhalisi çətin vəziyyətdə qalıb. Zəngəzur Dəhlizinin açılması ilə Naxçıvan əhalisinin çətinliklərinə də son qoyulacaq.

Eyni zamanda, TRIPP marşrutu fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. TRIPP marşrutu bu bağlantıda yeni və çox mühüm həlqə təşkil edəcək.

Azərbaycan bu kimi amilləri nəzərə almaqla TRIPP marşrutunun mümkün qədər tez açılmasının tərəfdarıdır və buna güclü siyasi iradə sərgiləyir. Paralel şəkildə, ölkəmizin ərazisində Zəngəzur Dəhlizi ilə bağlı infrastrukturun yaradılması istiqamətində qızğın iş gedir. Belə ki, nəzərdə tutulan avtomobil yolunun və dəmiryolunun tikintisi üzrə böyük iş həcmi yerinə yetirilib və layihələrin icrası hazırda son mərhələdədir. Bütövlükdə, Azərbaycanda TRIPP layihəsinin icrası Cənubi Qafqazda dayanıqlı sülhün möhkəmləndirilməsi, regional blokadaların aradan qaldırılması və Orta Dəhlizin potensialının artırılması baxımından tarixi addım kimi qiymətləndirilir.

Mübariz ABDULLAYEV



Milli Məclisin iclasında...

Deputatlar 10 qanun layihəsini qəbul ediblər

Noyabrın 24-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib.

Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova 25 noyabr tarixinin ölkəmizdə Kəlbəcər Şəhəri Günü kimi qeyd olunduğunu bildirib. Onun sözlərinə görə, bu şəhərimizin də erməni işğalından azad edilməsi Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həm hərbi, həm də diplomatik Zəfərinin nəticəsi olub. Azad edilmiş digər rayonlarımız kimi, bu gün Kəlbəcər də ikinci həyatını yaşayır. Bərpa-quruculuq işləri həyata keçirilir, keçmiş məcburi köçkün soydaşlarımız doğma yurdlarına dönürlər.

S.Qafarova, həmçinin noyabrın 18-dən 20-dək başçılıq etdiyi parlament nümayəndə heyətinin Türkmənistanda işgüzar səfərdə olduğunu xatırladıb. Səfərdə məqsəd MDB Parlamentlərarası Assambleyasının Şura iclasında və 61-ci plenar iclasında iştirak etmək idi. Keçirilən tədbir və görüşlər barədə məlumat verən S.Qafarova bu səfəri uğurlu hesab edib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Zahid Oruc, Ceyhun Məmmədov, Elman Nəsirli, Siyavuş Novruzov, Fazil Mustafa, Razi Nurullayev, Vüqar Bayramov və digərləri müxtəlif aktual mövzularla əlaqədar fikirlərini bildiriblər.

Daha sonra gündəlikdəki məsələlər müzakirə edilib. Əvvəlcə "Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "TotalEnergies EP Absheron B.V.", "SOCAR Absheron" və "ADNOC İnternational ProjectCo 1 RSC Limited" şirkətləri arasında dəyişdirilmiş və yeni redaksiyada tərtib olunmuş Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsi qəbul olunub.

Sonra "Mülki və ya ticarət işləri üzrə xaricdə sübutların toplanması haqqında Konvensiya"ya qoşulmaq barədə qanun layihəsi qəbul olunub.

İclasda, həmçinin "Maraqlar toqquşması haqqında" yeni qanun layihəsi birinci oxunuşda qəbul edilib. Qanun layihəsi Azərbaycan Prezidentinin 2022-ci il 4 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 1.6-cı bəndinin icrası çərçivəsində (dövlət orqanlarının (qurumlarının) vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması ilə bağlı müvafiq qanunvericilik aktlarının hazırlanması) hazırlanıb. Sənəd vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı məsələləri, eləcə də vəzifəli şəxslərin xidməti vəzifələrini icra etdikləri və ondan sonrakı dövrdə maraqlar toqquşmasının qarşısının alınması məqsədi ilə onlara tətbiq edilən məhdudiyyətləri müəyyən edir.

Qeyd edilib ki, maraqlar toqquşmasının (vəzifəli şəxsin xidməti səlahiyyətləri ilə şəxsi maraqları arasındakı ziddiyyətin) aradan qaldırılması üzrə səmərəli idarəetmənin olması yarana biləcək hüquq pozuntularının qarşısını alır, bu baxımdan qanun layihəsi maraqlar toqquşmasının qarşısının alınması üçün preventiv tədbirlərin görülməsini nəzərdə tutur. Maraqlar toqquşmasının idarə edilməsi onun vaxtında aşkar edilməsini, bəyan olunması və həllini təmin edir, vəzifəli şəxslərin fəaliyyətində səmərəliliyin, şəffaflığın yüksəldilməsinə və cəmiyyətdə onlara etimadın artmasına xidmət edir. Vicdanlı davranış, dövlət və ya ictimai maraqların üstünlüyü, maraqlar toqquşması risklərinin erkən aşkar edilməsi, hesabatlılıq, məsuliyyət, dürüstlük, obyektivlik və qərəzsizlik maraqlar toqquşmasının idarə edilməsinin əsas prinsipləri kimi müəyyən olunur.

Qanun layihəsinə əsasən, vəzifəli şəxs şəxsi marağına toxunan məsələlərə dair hüquqi və inzibati aktların hazırlanmasında iştirak etmir. Kollegial qurumun üzvü olan vəzifəli şəxs həmin qurum tərəfindən baxılan məsələlər şəxsi marağına toxunduğu hallarda həmin qurumu qabaqcadan məlumatlandırmalıdır. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Milli Məclisin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyaları və dövlət qurumlarının səlahiyyətli struktur bölmələri (şəxsləri) maraqlar toqquşmasının idarə edilməsi üzrə səlahiyyətli subyektlərdir. Vəzifəli şəxslər maraqlar toqquşması ehtimalı olduğu halda aidiyyəti subyektlərdən maraqlar toqquşmasının qarşısını almaq üçün konfidensial məsləhət ala bilərlər.

Layihə hazırlanarkən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), Beynəlxalq Valyuta Fondunun (IMF) və Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) tövsiyələrindən, eləcə də bir sıra xarici ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsindəki mütərəqqi təcrübəsindən istifadə edilib.

Sonra "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunda dəyişiklik (birinci oxunuş) edilib. Belə ki, qanunun 11-ci maddəsində məhkəmə ekspertinə qoyulan ixtisas tələbləri dəqiqləşdirilir. Qüvvədə olan qanunda məhkəmə ekspertinə ali təhsil və xüsusi biliklərə malik olmaq tələbi qoyulsa da, şəxsin ali təhsil ixtisasının fəaliyyət göstərəcəyi məhkəmə eksperti ixtisasına uyğunluğu məsələsi tənzimlənmir. Amma dəyişikliyə əsasən, məhkəmə eksperti olmaq istəyən şəxsin xüsusi bilikləri müvafiq məhkəmə eksperti ixtisası üzrə olmalıdır. Həmçinin hər bir məhkəmə eksperti ixtisası üzrə fəaliyyət göstərmək üçün tələb olunan ali təhsil ixtisasları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən siyahı ilə normativ qaydada müəyyən edilir. Bundan başqa, Qanunun 11-ci maddəsində "məhkəmə ekspertizası ixtisası" anlayışı əvəzinə "məhkəmə eksperti ixtisası" anlayışından istifadə edilməklə maddədə işlədilən terminologiya dəqiqləşdirilir.

Təklif olunan dəyişikliklər məhkəmə ekspertlərinin fəaliyyət göstərdikləri sahəyə uyğun ali təhsilə malik olmasının təmin edilməsinə, şəhadətnamələrin verilməsində vahid meyarların tətbiqinə və ekspert rəylərinin keyfiyyətinin artırılmasına xidmət edir.

Millət vəkilləri "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini də birinci oxunuşda qəbul ediblər. Sənəd gömrük orqanlarında kadrların xidmət üzrə başqa vəzifələrə keçirilməsinin hüquqi əsaslarını dəqiqləşdirməyə və rotasiya institutunun tətbiqi üçün normativ hüquqi bazanı yaratmağa, bununla da gömrük sistemində peşəkar idarəetmənin, xidməti intizamın, institusional çevikliyin və korrupsiya risklərinin qabaqlanmasının təmin edilməsinə yönəlib.

Qeyd edək ki, iclasın gündəliyində digər qanun layihələri də qəbul olunub. Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının noyabrın 27-də keçiriləcəyini bildirib.


Nardar BAYRAMLI



Günün mübarək, Kəlbəcər!

Altı il əvvəl sentyabrın 27-də başlanan Vətən müharibəsi nəticəsində rəşadətli ordumuz torpaqlarımızı erməni işğalçılarından azad etdi. 30 ilə yaxın işğal atında olan torpaqlar Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə düşməndən təmizlənərək əzəli sahibinə qaytarıldı. Ordumuzun qazandığı şanlı zəfər Ermənistanı kapitulyasiya aktını imzalamağa, Ağdam rayonundan beş gün sonra noyabrın 25-də Kəlbəcər rayonunu da boşaltmağa məcbur etdi. Beləliklə, daha bir rayon - Kəlbəcər bir güllə atılmadan Azərbaycana təhvil verildi. Üçtərəfli Bəyanata əsasən, 2020-ci il noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi dinc yolla işğaldan azad edildi.

Həmin gün Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, bu tarix Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.





Ermənilərin dəyişməyən xisləti

Xatırladaq ki, Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. İşğal nəticəsində 53 min 340 sakin öz dədə-baba yurdundan qovulub, 511 dinc sakin öldürülüb, 321 nəfər əsir və itkin düşüb. Rayonun 484 nəfər şəhidi var. Onların 258-i hərbçi, 226-sı mülki şəxsdir. Vətən müharibəsində rayonun 37 sakini şəhid olub. Kəlbəcərdən olan 3 döyüşçü Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

İşğal nəticəsində rayonun bütün yaşayış məntəqələri, 13 minədək fərdi mənzil talan edilib, 87 tarixi abidə, 1 muzey, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evini, tarix-diyarşünaslıq muzeyini, 9 xəstəxananı, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, çoxlu sayda texnikanı talan edib, dağıdıb və rayonun milyardlarla manatlıq sərvətini Ermənistana daşıyıblar. Rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəyib. Rayonun məcburi köçkün əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşıb.

Kəlbəcərdə erməni vəhşiliyinin izləri hər addımda görünür. Dağıntı və talanlar həm işğal dövründə, həm də 2020-ci ildə ermənilər rayondan çıxarkən davam etdirilib. İşğaldan azad olunan Kəlbəcərə səfər edən Prezident İlham Əliyev bu barədə danışarkən deyib: "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb sökdülər. Vaxt dəyişir, amma ermənin faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

Kəlbəcərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır

İşğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Kəlbəcərdə də genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Ötən il avqustun 20-dən etibarən Kəlbəcər şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı başlanıb. Böyük Qayıdış prosesinin növbəti əlamətdar hadisəsi kimi, Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə köçən sakinlərlə görüşüb, onlara yeni mənzillərin açarlarını təqdim ediblər. Həmin mərasim zamanı Prezident İlham Əliyev deyib: "Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə - çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda - müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub".

Rayonda aparılan nəhəng quruculuq işləri dağlar diyarının gözəl gələcəyindən, azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın uğurlu perspektivindən xəbər verir. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra işğaldan azad edilmiş regionların iqtisadiyyata reinteqrasiyası ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni üfüqlər açır.

Nardar BAYRAMLI

Kəlbəcər canlı təbiət muzeyini xatırladır

Dağlar qoynunda yerləşən Kəlbəcər başdan-başa canlı təbiət muzeyini xatırladır. Təkcə bir faktı göstərmək kifayətdir ki, rayon ərazisində 30 mindən artıq bulaq var, 4 mindən artıq bitki növü bitir və onlardan 200-ü dərman bitkisidir. Kəlbəcərdə həzm sistemi xəstəliklərinin əvəzsiz müalicəsi hesab olunan zəngin mineral tərkibə malik olan İstisu müalicə ocağı yerləşir. İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. İstisu mineral suları hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur və daim çağlayan 12 bulaqdan ibarətdir. İstisuyu yerin təkindən 58,8 dərəcə C istiliyində qaynayır. Mineralların sayı 6,7 qrama çatan 1 litr suyun tərkibi göstərir ki, litium, brom, yod, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir. Ərazidəki bulaqlardan biri 8 metrədək hündürlükdə fəvvarə vurur. Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Mozçay, Bağırsaq, Qotursu kimi çox böyük müalicə - balneoloji təsirə malik mineral su yataqları Kəlbəcərə dünya şöhrəti qazandırıb. İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür.

"İstisu" İstirahət-müalicə kompleksinin 34 hektar ərazidə salınması və gündəlik 300 nəfəri qəbul etməsi üçün inşaat işləri gedir. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottec də tikilir.

Qədim tarixə malik Kəlbəcər ərazisində alban dövrünə aid çoxlu abidə var. Bağlıpəyə kəndi yaxınlığında yerləşən Xudavəng kompleksi Ağdərə-Kəlbəcər avtomobil yolunun üzərində yerləşir. Laçın kəndində "Laçınqaya" qalası, Lev kəndində "Lev" kilsəsi, Qaraçanlı kəndində "Uluxan" qalası, Başlıbel kəndində "Aşağı qalaça" və "Yuxarı qalaça", Çərəkdar kəndində Həsən Camal kilsəsi, Qanlıkənddə "Lök" qalası, Qalaboynu və Comərd qalaları da digər qədim alban abidələri sırasına daxildir.

Əlverişli relyefi, saf dağ iqlimi, mineral suları ilə böyük turizm potensialından xəbər verən Kəlbəcərdə 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə İslamın yayıldığı dövrlərin yadigarlarıdır.

Yarımçıq qalan həyatların ağrısı...

Müharibə dedikdə göz önündə insanlıq əleyhinə dəhşətli cinayətlər canlanır. Azərbaycan da müstəqilliyinin ilk illərindən qonşu Ermənistanın respublikamıza qarşı başladığı təcavüzkarlıq siyasətinin nəticəsi olaraq belə dəhşətləri yaşayan ölkələr sırasında yer alır. Dağıdılmış şəhərlər, kəndlər, təhqir edilmiş qəbiristanlıqlar, talançılığa məruz qalmış təbii sərvətlər, oğurlanmış tarixi-mədəni irs nümunələri ... Bunlar Ermənistanın havadarlarının dəstəyi ilə üç onillik ərzində davam etdirdiyi müharibənin kədərli miraslarıdır.

Lakin Azərbaycan xalqının üzləşdiyi amansız müharibənin son dərəcə ağır fəsadları yalnız sadalananlarla bitmir. Ədalətsiz müharibənin ən ağır mirası həyatları yarımçıq kəsilən və taleləri naməlum qalan insanların yaxınlarının çəkdikləri əzab-əziyyətdir. Gecə-gündüz onların gözləri qapı-pəncərədədir, gəlib-gedəndən soraq, təsəlli gözləyirlər.



Azərbaycan dövlətinin həssas yanaşması

Rəsmi məlumatlara əsasən, Birinci və İkinci Qarabağ müharibələrində, ümumilikdə, 4010 Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 4004 nəfəri Birinci Qarabağ müharibəsi, 6 nəfəri isə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı itkin düşüb.

Təqdim olunan rəqəmlər özlüyündə əyani göstəricidir. Görün, nə qədər ailə, ana, ata, bacı, qardaş yaxınlarının həsrəti ilə yaşayır. Tarix boyunca Azərbaycan xalqının özünəməxsus həyat tərzi, mentaliteti formalaşıb. İnsanlar yaxın adamını itirdikdə "ölüm haqdır" deyib onu torpağa tapşırır və bununla da müəyyən qədər təsəlli tapırlar. Birinci və İkinci Qarabağ müharibələrində igid oğul və qızlarımız uca şəhidlik zirvəsinə ucalıblar. İndi Azərbaycanın, demək olar ki, hər bölgəsində şəhidlərimizin uyuduqları qəbiristanlıqlar var. Onlar bizim müqəddəs ziyarətgahlarımıza çevriliblər. Ancaq müharibələr başa çatsa da, taleləri hələ də bəlli olmayan insanların ağrı-acısı bitib-tükənmək bilmir, hər an qəlbimizi sızladır.

Taleləri hələ də bəlli olmayan insanlarla bağlı məsələ yalnız ailələrin, cəmiyyətin problemi deyil. Eyni zamanda, daim öz vətəndaşlarının yanında olmaq nümunəsi sərgiləyən Azərbaycan dövləti Prezident İlham Əliyevin son dərəcə həssas yanaşmasına uyğun olaraq bu məsələni daim ölkə gündəliyində saxlayır. Prezident İlham Əliyev bir qədər bundan əvvəl Bakıda əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının (DK) təşkilatçılığı ilə itkin düşmüş şəxslər üzrə "Bakı Dialoqu" çərçivəsində keçirilən "İtkin düşmüş şəxslər probleminin həllində etimadın gücləndirilməsi və effektiv mexanizmlərin inkişaf etdirilməsi" mövzusunda IV Beynəlxalq Konfransın iştirakçılarına ünvanladığı müraciətində bir daha vurğulayıb ki, münaqişənin bitməsinə baxmayaraq, itkin düşmüş şəxslərin taleyinin araşdırılması Azərbaycan dövləti üçün ən vacib məsələlərdən biri olaraq qalmaqdadır.

Azad ərazilərdə aşkarlanan 32 məzarlıq


Eyni zamanda, dövlət başçısının tapşırıqlarına uyğun olaraq müvafiq qurumlar itkin düşmüş şəxslər barəsində məlumatların toplanması istiqamətində fəaliyyətlərini ara vermədən davam etdirirlər. O cümlədən işğaldan azad edilmiş ərazilərdə aparılan axtarış və qazıntı işləri taleyi naməlum qalan şəxslərin müəyyənləşdirilməsi üçün mühüm zəmin yaradıb. Rəsmi məlumatlara əsasən, indiyədək 32 kütləvi məzarlıq aşkarlanıb və 910 nəfərə aid insan qalıqları çıxarılıb. DNT və məhkəmə-tibbi ekspertizalar sayəsində 328 şəxsin kimliyi təsdiqlənib, onlardan 267 nəfərin qalıqları ailələrinə təhvil verilərək dəfn edilib.

Görülən işlər yalnız kriminalistik və texniki prosedurlardan ibarət deyil. Kütləvi məzarlıqların aşkarlanması baş vermiş hadisələrin, şahid ifadələrinin dəqiqləşdirilməsi, faktların sənədləşdirilməsi və beynəlxalq humanitar hüquq pozuntularının araşdırılması baxımından da mühüm rol oynayır.

Bununla yanaşı, identifikasiya prosesi mürəkkəb və uzunmüddətli mərhələlər tələb edir. Qalıqların saxlanma vəziyyəti, bioloji materialların zamanla parçalanması, dəlillərin itməsi, şahidlərin azalması və məlumat qıtlığı işi çətinləşdirən əsas maneələrdir. Odur ki, müasir DNT üsullarının, antropoloji analizlərin, arxiv sənədlərinin və kriminalistik vasitələrin ardıcıl tətbiqi, eləcə də yerli mütəxəssislər və beynəlxalq ekspertlərin cəlb olunması xüsusi əhəmiyyət daşıyır.

Ermənistanın beynəlxalq humanitar hüquqa və etimad quruculuğuna zidd olan davranışları

Minlərlə ailənin iztirabına səbəb olan məsələnin həlli beynəlxalq əməkdaşlıq, koordinasiyalı fəaliyyət tələb edir. Bu baxımdan Prezident İlham Əliyevin itkin düşmüş şəxslər probleminin həlli məqsədilə BMT çərçivəsində xüsusi mexanizmin yaradılması barədə irəli sürdüyü təşəbbüs böyük aktuallıq daşıyır. Beynəlxalq humanitar hüquq bu sahədə aydın hüquqi çərçivə müəyyənləşdirir. 1949-cu il 12 avqust tarixli dörd Cenevrə Konvensiyası və 1977-ci il Əlavə Protokolları silahlı münaqişələr zamanı həlak olmuş şəxslərin qalıqlarının müəyyənləşdirilməsi və dəfn yerlərinə hörmətlə yanaşılması ilə bağlı mühüm hüquqi normaları ehtiva edir. Münaqişə tərəfləri həlak olmuş şəxslərin mümkün olduğu hallarda dini adət-ənənələrinə uyğun dəfn olunmasını təmin etməli, məzarların qorunmasına, müvafiq qaydada işarələnməsinə və gələcəkdə müəyyənləşdirilə bilməsinə şərait yaratmalıdırlar. Bundan başqa, ailələrin və rəsmi komissiyaların nümayəndələrinin dəfn yerlərinə çıxışı, habelə insan qalıqlarının mənşə dövlətinin və ya yaxınlarının müraciəti əsasında geri qaytarılmasının asanlaşdırılması da beynəlxalq humanitar hüququn mühüm istiqamətlərindəndir.



Azərbaycan və Ermənistan arasında informasiya mübadiləsinin genişləndirilməsi, mümkün dəfn yerləri barədə məlumatların paylaşılması, arxiv materiallarının araşdırılması və DNT nəticələrinin qarşılıqlı müqayisəsi itkin düşmüş şəxslərin identifikasiyası prosesində real nəticələrin əldə olunmasına şərait yarada bilər. Otuz illik işğal dövründə Azərbaycan müxtəlif beynəlxalq platformalarda itkin düşmüş şəxslərlə bağlı problemi gündəmə gətirib və Ermənistandan bununla bağlı səhih məlumatları ölkəmizə təqdim etməsini istəyib. Rəsmi İrəvan isə müxtəlif bəhanələr gətirməklə məlumatları verməkdən yayınıb. Təəssüf doğuran haldır ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin bu illər ərzində fəaliyyəti də nəticə verməyib.

Ermənistanın bu kimi davranışları beynəlxalq hüquqa və sülh, etimad quruculuğu prosesinə uyğun deyil. İtkin düşmüş şəxslərin axtarışlarının səmərəliliyi dəqiq məlumatların əldə olunmasından bilavasitə asılıdır. Ermənistan itkin düşmüş azərbaycanlıların taleyi, kütləvi və fərdi dəfn yerləri barədə bütün məlumatları təqdim etməli, müvafiq arxivlərin açılmasına və şahid ifadələrinin toplanmasına şərait yaratmalıdır. Bu, hüquqi öhdəlik və humanitar məsuliyyət olmaqla yanaşı, sülhə sadiqliyin əməli ifadəsi, qarşılıqlı etimadın möhkəmləndirilməsinə töhfə olardı. İnsan taleyinə aid məlumatlar siyasi şərtləndirmə predmeti olmamalıdır.

Mübariz FEYİZLİ

"Şahdəniz"dən sonra ən böyük qaz yatağı

"Abşeron" blokuna dair Hasilatın Pay Bölgüsü Sazişi təsdiq edilib

Milli Məclis "Xəzər dənizinin Azərbaycan sektorunda "Abşeron" dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişi təsdiq edib. Sənədə əsasən, Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Fransanın "TotalEnergies EP Absheron B.V", "SOCAR Absheron" və Birləşmiş Ərəb Əmirliklərinin "ADNOC International ProjectCo 1RSC Limited" şirkətləri arasında imzalanmış saziş dəyişdirilib və yeni redaksiyada tərtib olunub.

Qeyd edək ki, "Abşeron" yatağı üzrə ilkin Hasilatın Pay Bölgüsü Sazişi 2009-cu ildə imzalanıb və yataqda kəşfiyyat işləri aparılıb. Kəşfiyyat işləri uğurla nəticələndikdən sonra blokda işlənmə və hasilat proqramı 2017-ci ildə qəbul edilib. 2023-cü ildə yataqda hasilata başlanılıb və həmin il quyudan illik qaz hasilatı 1.5 milyard kubmetr təşkil edib. 2024-2025-ci ildə isə hasilat 2 milyard kubmetrə bərabər olub.

Beləliklə, "Abşeron" blokunda yeni hasilat - tammiqyaslı emal-nəql işlərinin başlanması üçün beynəlxalq konsorsiumlar tərəfindən birgə sərmayə planına start verilmiş olur.



Cənub Qaz Dəhlizinin etibarlı bloku

"Abşeron" yatağı Azərbaycanın enerji strategiyasında mühüm yer tutan əsas karbohidrogen mənbələrindən biridir. Bu yataq Cənub Qaz Dəhlizinin və onun mühüm tərkib hissəsi olan Trans-Adriatik Boru Kəmərinin (TAP) ən perspektivli bloklarından sayılır. Ehtiyatların həcminə görə, "Şahdəniz"dən sonra Azərbaycanın ikinci böyük yatağıdır. Hazırda "Abşeron" qaz-kondensat yatağından hasil edilən qaz dənizdəki 140 kilometrlik boru kəməri vasitəsilə Səngəçal terminalına nəql olunur, ordan isə həm Azərbaycanın daxili bazarına, həm də mövcud qaz nəqli infrastrukturu ilə Türkiyə və Avropa bazarlarına yönləndirilir. Yataqda 350-360 milyard kub.metr qaz ehtiyatları ehtimal olunur. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kub.metrdən də çox olduğunu deməyə əsas verir. Bu isə təkcə, "Abşeron" yatağının ehtiyatları hesabına Avropa İttifaqı ölkələrinə ən azı 20-25 il ərzində dayanıqlı qaz nəqlinin mümkünlüyünü təsdiqləyir.

2029-cu ildə 6 milyard kubmetr qaz hasilatı

"Abşeron" yatağının resurslarının maksimal işlənməsini təmin etmək və qaz istehsalını artırmaq üçün Tammiqyaslı İşlənmə Layihəsi üzrə Yekun İnvestisiya Qərarı 2026-cı ilin sentyabrında qəbul edilib və tərəfdaşlar arasında Hasilatın Pay Bölgüsü Sazişi imzalanıb. Yataqda tammiqyaslı işlənmə planı 2029-cu ildə mümkün olacaq. Bu mərhələ həm də Azərbaycanda qaz bumunun ikinci fazasının başlanması deməkdir. Belə ki, "Abşeron" blokunda ümumi qaz hasilatının illik 6 milyard kubmetrə çatdırılması planlaşdırılır ki, nəticədə Azərbaycanın il ərzində dünya bazarlarına qaz nəqlinin təxminən 4-5 milyard kubmetr artacağı mümkün olacaq.

Azərbaycan hazırda Avropaya təxminən illik 12-13 milyard kubmetr qaz ixrac edir. 2028-2030-cu illərdə ölkəmzin Avropa regionuna ixracının 15-16 milyard kubmetrə çatdırılması proqnozlaşdırılır. Qaz tədarükündə əsas mənbə "Şahdəniz" layihəsidir və təkcə "Şahdəniz-2" blokundan illik 16-17 milyard kubmetr qaz istehsal olunur. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa, "Azəri-Çıraq-Günəşli" (ACG) blokunda hasilatın həcmi yüksəlir. Perspektiv yataqlar kimi "Abşeron" və "Ümid" blokları da xüsusi əhəmiyyət daşıyır. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan "Fitch Ratings" bir müddət əvvək açıqladığı hesabatda "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib. Ümumilikdə, "Abşeron" və digər yataqlar da daxil olmaqla, Azərbaycanın təsdiqlənən qaz ehtiyatları 2,6 trilyon kubmetr fərz edilir.

Beləliklə, 2029-cu ildə "Abşeron"dan illik 6 milyard kubmetr qaz hasilatının təmin edilməsi sayəsində Azərbaycanın Aİ-yə ixracının həcmi də 16 milyard kubmetri ötmüş olacaq. Eyni zamanda, həmin mənbə hesabına Türkiyəyə 15 illik müddət ərzində 33 milyard kubmetr təbii qaz nəqli nəzərdə tutulur.

TAP kəmərinin ötürücülük potensialı genişləndiriləcək

"Abşeron" yatağının və Xəzərdəki digər bloklarda hasilat və nəql imkanlarının böyüməsi Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsini labüdləşdirir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində konsorsuium üzvləri və layihə tərəfdaşları arasında yeni təkilflər hazırlanıb. Belə ki, boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması üçün tələb olunan irihəcmli maliyyə vəsaitinin ayrılmasında Avropa Komissiyasının təşəbbüsü ilə Avropa maliyyə institutlarının sərmayə ayırması tələb olunur. Yaxın vaxtlarda maliyyə təşkilatları ilə birgə yekun investisiya qərarının verilməsi nəzərdə tutulur.

Beləliklə, "Abşeron" qaz-kondensat yatağının yeni mərhələsinin başlanması ilə Azərbaycan neft-qaz strategiyasında da mühüm hadisəyə imza atır. Bu qaz yatağı ölkəmizin enerji potensialının güclənməsinə və qazın beynəlxalq bazarlara nəqlinin artmasına, respublikamızın iqtisadi potensialının gücləndirilməsinə mühüm töhfələr verəcək.

E.CƏFƏRLİ

Rəqəmsal bankçılıq üçün səmərəli platforma

Bakıda keçirilən "X Beynəlxalq Bankçılıq Forumu 2026"da elektron bank xidmətlərinin yeni hədəfləri müəyyən edilib

Noyabrın 24-də Bakıda "Mastercard" ilə strateji tərəfdaşlıq çərçivəsində "X Beynəlxalq Bankçılıq Forumu 2026" (IBF 2026) keçirilib. "Etibarlı, təhlükəsiz və dayanıqlı bankçılıq" mövzusunda keçirilən forum Mərkəzi Bank, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM), Türk Dövlətləri Bank Assosiasiyaları Şurası (CBATS), Azərbaycan Banklar Assosiasiyası, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin bank assosiasiyaları və digər tərəfdaş təşkilatların dəstəyi ilə təşkil olunub. Forum çərçivəsində bankçılıq sektorunun gələcəyi, rəqəmsal transformasiya, süni intellektin maliyyə xidmətlərində tətbiqi, ödəniş sistemlərinin inkişafı, kibertəhlükəsizlik, maliyyə texnologiyaları, "yaşıl bankçılıq", alternativ maliyyələşmə mexanizmləri və dayanıqlı maliyyə kimi aktual mövzular müzakirə olunub.

IBF platforması regionun maliyyə və bankçılıq sektorunda aparıcı platformalarından biri olaraq hər il yüksəksəviyyəli iştirakçıları bir araya gətirir. Ötən illər ərzində təşkil olunan forum Bakı şəhərinin biznes və iqtisadi tədbirlər təqvimində flaqman tədbirlərdən biri kimi öz mövqeyini möhkəmləndirib.

Milli Ödəniş Sistemi ilə aparılan əməliyyatların həcmi 862,7 milyard manatı ötüb

Tədbirdə çıxış edən "Azərbaycan Banklar Assosiasiyası"nın prezidenti Zakir Nuriyev bildirib ki, son illərdə bank sektorunda institusional mühit daha da yaxşılaşdırılıb, ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində qanaunvericilik bazası beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilib, bazara rəqabətə davamlı iştirakçıların daxil olması təmin edilib. Ödəniş xidmətləri həyata keçirən elektron pul və ödəniş təşkilatlarının, ödəniş sistemi operatorunun sayı artıb. İslahatlar nəticəsində milli ödəniş sistemi infrastrukturu, yəni AZİPS, XÖHKS və AÖS üzərindən emal edilən ödəniş əməliyyatlarının ümumi dövriyyəsi genişlənməkdə davam edir. 2026-cı ilin ötən 9 ayında Milli Ödəniş Sistemi vasitəsilə aparılan əməliyyatların həcmi isə ötən ilin eyni dövrü ilə müqayisədə 16,2 faiz artaraq 862,7 milyard manata - tarixi rekord həddinə çatıb. Ölkə daxilində kartlarla həyata keçirilən nağdsız ödənişlərin həcmi isə 80,7 milyard manata çatıb. Kart əməliyyatlarının ümumi həcmində nağdsız ödənişlərin payı hazırda 70 faiz təşkil edir.

Bank sektorunun aktivləri 65 milyard manatdan çoxdur

Mərkəzi Bankın (MB) İdarə Heyəti sədrinin I müavini Əliyar Məmmədyarov bildirib ki, 2026-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda bank sektorunun aktivləri 14 faizdən çox artaraq 65 milyard manatı ötüb. Bu dövrdə bankların kredit portfeli 14 faiz artaraq 34 milyard manatı üstələyib, bankların biznes kreditləri portfeli isə 17 faiz artaraq 19 milyard manata yaxınlaşıb. Əhalinin əmanətləri isə 15 faizə yaxın artaraq tarixi rekorda - 18,7 milyard manata çatıb. Son illərdə bank sektoru üzrə unikal əmanətçi sayında da artım müşahidə olunur. 2023-cü ilin sonu ilə müqayisədə unikal əmanətçi sayı 2,2 dəfə artaraq 235 min nəfəri üstələyib. Bank sisteminin dayanıqlıq göstəriciləri də yüksək olaraq qalır. Belə ki, sektorun məcmu kapitalı 7 milyard manat təşkil edir. Bank sisteminin əsas göstəricisi olan kapitalın adekvatlıq əmsalı 17 faizdən çoxdur. Bu da tənzimləyici tələblərimizi əhəmiyyətli dərəcədə üstələyir və gələcək texnoloji transformasiya üçün möhkəm təməl formalaşdırır.



Türkiyə Banklar Birliyinin İcraçı direktoru Nurullah Bakır isə Türk dövlətləri arasında maliyyə və bank sahəsində əməkdaşlığın müasir vəziyyətinə toxunaraq yeni nəsil maliyyə alətlərində birgə layihələrin tətbiqinin vacib olduğunu bildirib.

Rəqəmsal transformasiya üzrə yeni Dövlət Proqramı hazırlanır

Son illərdə tənzimləmə və nəzarət istiqamətləri üzrə həyata keçirilən dayanıqlı tədbirlər ölkənin bank sektorunun beynəlxalq reytinqlərinin yaxşılaşmasına əhəmiyyətli töhfə verib.

Ə.Məmmədov bank sektorunun qarşısında duran yeni çağırışlardan bəhs edərək vurğulayıb ki, MB 2027-ci ilə yeni texnoloji reallıqlarla daxil olur. Sürətli rəqəmsallaşma, açıq bankçılığın inkişafı və süni intellektin geniş tətbiqi maliyyə bazarlarında oyun qaydalarını köklü şəkildə dəyişdirir. Bu baxımdan kapital tələbləri kimi klassik risk azaltma tədbirləri ilə yanaşı, texnoloji və kiberrisklərə yönəlik nəzarət mexanizmlərinin sürətli tətbiqi nəzərdə tutulur. Məhz bu kontekstən hazırda tənzimləyici qurumların qarşısında iki sistemli çağırış formalaşdırır. Birinci çağırış risklərin təbiətinin mürəkkəbləşməsi: belə ki, ənənəvi maliyyə risklərinə yüksək əməliyyat, texnoloji və hətta iqlim riskləri əlavə olunur. İkincisi, sosial mühitdə məlumatların sızma riskləri ilə bağlıdır.

Ə.Məmmədov qeyd edib ki, Mərkəzi Bank maliyyə sektorunun rəqəmsal transformasiyası üzrə yeni dövlət proqramı hazırlayır. 2027-2030-cu illəri əhatə edən proqramın əsas prioritetləri ölkəmizi regionun aparıcı rəqəmsal maliyyə mərkəzlərindən birinə çevirmək, innovativ maliyyə xidmətlərinin inkişafını dəstəkləmək və nağdsız ödənişləri genişləndirməkdir.

Elektron ticarət əməliyyatlarının həcmi yüksəlib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd edib ki, etibarlı, təhlükəsiz və dayanıqlı bank sektorunun formalaşdırılması üçün müasir texnologiyaların və analitik yanaşmaların inteqrasiyası həyati əhəmiyyət daşıyır. Xüsusilə süni intellekt və böyük verilənlərin tətbiqi risklərin idarə olunmasında yeni imkanlar açır. Bu texnologiyalar banklara kredit, likvidlik, bazar və əməliyyat risklərini daha proaktiv və dəqiq qiymətləndirməyə, real vaxt rejimində analitik qərarlar qəbul etməyə, eləcə də dəyişən şəraitə operativ və çevik reaksiya verməyə imkan yaradır. Həmçinin, bank əməliyyatlarının kibertəhlükəsizlik tələblərinə uyğunlaşdırılması və rəqəmsal ödəniş risklərinin səmərəli idarə olunması da mühüm əhəmiyyət daşıyır. Elektron bankçılığın və nağdsız ödənişlərin genişlənməsi təhlükəsizlik mexanizmlərinin gücləndirilməsini, maliyyə əməliyyatlarının etibarlılığının təmin edilməsini zəruri edir. Bu infrastrukturun dayanıqlılığı sayəsində ölkədaxili nağdsız kart ödənişlərinin həcmi cari ilin ötən 9 ayında 25,6 faiz artaraq 99,1 milyard manata çatıb. Elektron ticarət əməliyyatlarının sayı və həcmi müvafiq olaraq 43,4 faiz və 29,8 faiz yüksəlib. İnternet və mobil bankçılıq vasitəsilə həyata keçirilən müştəri köçürmələrində də müvafiq olaraq 12,4 faiz və 14,3 faiz artım qeydə alınıb.

Azərbaycan nağdsız ödənişlər üzrə bir çox ölkələri geridə qoyub

Forumda çıxış edən "Mastercard Advisors & Consulting Services" şirkətinin nümayəndəsi Eren Özkan ölkəmizdə rəqəmsal bankçılığın inkişafına diqqət çəkərək vurğulayıb ki, Azərbaycan regionda rəqəmsallaşma baxımından ən sürətlə inkişaf edən, ən qabaqcıl mövqelərə yüksələn ölkələrdən biridir. Rəqəmsallaşmanın əsas göstəricilərindən biri kart əməliyyatlarının hansı hissəsinin nağdsız formada həyata keçirilməsidir. Təxminən 10 il əvvəl Azərbaycanda bu göstərici 10 faiz ətrafında idisə, hal-hazırda 68 faizə yüksəlib. Respublikamız bu göstərici üzrə bir çox ölkəni, o cümlədən ÜDM-i dəfələrlə çox olan dövlətləri geridə qoyur. Qeyd edilib ki, rəqəmsal arxitektura Azərbaycanda ödəniş kartları ilə həyata keçirilən nağdsız ödənişlərin illik dövriyyəsini daim artırır. Hazırda bu dövriyyənin məbləği 100 milyard manata, ümumi əməliyatlarda isə xüsusi çəkisi isə 70 faizə yaxınlaşıb ki, bu da bir çox ölkələrdən üstün göstəricidir.

"Mastercard"ın nümayəndəsi bildirib ki, Azərbaycan rəqəmsal ödəniş ekosistemində ciddi islahatları daha da inkişaf etdirir ki, bu da növbəti mərhələdə isə mobil cihazlar və smartfonların bazarda rolunu gücləndirəcək. Mobil ödənişlərin inkişafı, xüsusilə də, "Apple Pay" və "Google Pay" kimi texnologiyaların Azərbaycanda istifadəsinin artması təmassız əməliyyatlarda daha yüksək göstəriciyə çatmağa imkan verəcək.

Türk dövlətləri bank əməkdaşlığını gücləndirmək niyyətindədir

Onun sözlərinə görə, etibarlı, təhlükəsiz və dayanıqlı bankçılıq sisteminin inkişafı ölkələr arasında əməkdaşlığı da zəruri edir. Türk dövlətləri arasında mövcud olan güclü əlaqələr maliyyə və bankçılıq sahəsində mühüm imkanlar yaradır. Türk Dövlətləri Bank Birlikləri Şurası çərçivəsində həyata keçirilən fəaliyyət bank birlikləri arasında bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, ortaq layihələrin hazırlanması və institusional potensialın gücləndirilməsi bir-birindən ayrı deyil, əksinə, bir-birini tamamlayan prioritetlərə fokuslanaraq texnoloji transformasiyaya diqqəti artırmalıdır. Həmçinin, texnoloji inkişafın tələblərinə adekvat cavab vermək üçün süni intellekt, açıq bankçılıq, rəqəmsal kimlik və yeni nəsil ödəniş sistemlərinə yönəlmiş maliyyə xidmətlərinin göstərilməsində yeni imkanları dəyərləndirmək lazımdır.

"X Beynəlxalq Bankçılıq Forumu 2026"da bir sıra sənədlər imzalanıb. Belə ki, Azərbaycan Banklar Assosiasiyası ilə Mərkəzi Asiya Fintex Assosiasiyası arasında əməkdaşlıq sazişi imzalanıb. Azərbaycan Banklar Assosiasiyası Tacikistan Banklar Assosiasiyası ilə anlaşma memorandumunu imzalayıb.

E.CƏFƏRLİ

Tom Lantos komissiyasının “son çırpınışları”...

Cənubi Qafqazda sülhü hədəfə almaq istəyindən doğan “dinləmələr”

Ermənistanın yeni Konstitusiya layihəsinin təqdimatı, rəsmi İrəvanın Azərbaycana qarşı ərazi iddialarının hüquqi müstəvidə aradan qaldırılması istiqamətində addımlar atmaq niyyəti və xarici siyasət prioritetlərini sülh gündəliyi üzərində formalaşdırmaq cəhdi regionda yeni siyasi reallığın möhkəmlənməsinə xidmət edir. Lakin bu proses heç də bütün dairələr tərəfindən eyni rəğbətlə qarşılanmır. Xüsusilə, onilliklər ərzində Ermənistanın siyasi kursuna təsir göstərməyə, bölgədəki münaqişə mühitindən öz maraqları naminə istifadə etməyə çalışan xaricdəki erməni lobbisi yaranmış vəziyyətdən ciddi narahatlıq keçirir. Çünki sülhün bərqərar olması, qarşılıqlı ərazi bütövlüyünün tanınması və münasibətlərin beynəlxalq hüquq prinsipləri əsasında normallaşması bu dairələrin illərdir istinad etdiyi siyasi manipulyasiya vasitələrini tam zərərsizləşdirir. Məhz buna görə də erməni lobbisi köhnə təbliğat mexanizmlərini yenidən işə salır, nəzarətindəki siyasi platformaları və təsir imkanlarını hərəkətə gətirir. Noyabrın 18-də ABŞ Konqresinin Nümayəndələr Palatasında Tom Lantos İnsan Hüquqları Komissiyasının keçirdiyi dinləmələr də bu baxımdan təsadüfi xarakter daşımır. Azərbaycan və Türkiyəyə qarşı irəli sürülən ittihamlar, bir-biri ilə mahiyyət etibarilə əlaqəsi olmayan məsələlərin vahid siyasi “ittiham paketi”nə çevrilməsi və Vaşinqtona ünvanlanan hərbi-siyasi məhdudiyyət çağırışları eyni məqsədə xidmət edir. Görünən isə budur ki, dəyişən yalnız siyasi şəraitdir, ermənipərəst dairələrin yanaşması, arqumentləri və təzyiq metodları hələ də davam etməkdədir. Onlar sülhün yaratdığı yeni imkanları qəbul etmək əvəzinə, qarşıdurmanın köhnəlmiş ritorikasını yenidən beynəlxalq gündəliyə daşımağa çalışırlar.

Növbəti ermənipərəst “dinləmə”...

ABŞ Konqresində Azərbaycana qarşı növbəti ittiham kampaniyası başlayıb. Noyabrın 18-də Nümayəndələr Palatasının Tom Lantos İnsan Hüquqları Komissiyasında keçirilən dinləmələrdə Azərbaycan və Türkiyə hədəfə alınıb. Tədbirdə çıxış edənlər Bakı və Ankaranı ermənilərə qarşı təzyiqlərdə, dini icmaların sıxışdırılmasında və Ermənistanın təhlükəsizliyinə təhdid yaratmaqda ittiham ediblər.

Müzakirə predmetlərinə isə artıq tarixə qovuşmuş Qarabağ məsələsindən tutmuş “Qərbi Azərbaycan” mövzusuna, Ermənistan Apostol Kilsəsi ətrafındakı qarşıdurmadan Bakıda saxlanılan erməni əsilli şəxslərə qədər müxtəlif məsələlər daxildir. Məqsəd isə açıq şəkildə ifadə olunub: ABŞ-ın Azərbaycana və Türkiyəyə hərbi yardımını, silah satışını və diplomatik dəstəyini məhdudlaşdırmaq.

Dinləmələrə respublikaçı konqresmen Kris Smit və demokrat Ceyms Makqovern həmsədrlik ediblər. “Christian Solidarity International” təşkilatının prezidenti Con Aybner çıxışında Azərbaycan və Türkiyənin “bir millət, iki dövlət” prinsipinə əsaslanan əməkdaşlığını xristian icmaları üçün təhlükə kimi təqdim edib. O, Azərbaycanı Ermənistanın suveren ərazilərini işğal etməkdə, Bakıda saxlanılan erməni əsilli şəxslərdən siyasi təzyiq vasitəsi kimi istifadə etməkdə ittiham edib.

Lakin çıxışlarda Azərbaycanın mövqeyinə, 30 ilə yaxın davam etmiş işğala, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsinə, Ermənistanın Azərbaycan ərazilərində törətdiyi dağıntılara və işğal dövründə məhv edilən dini-mədəni irsə yer verilməyib. Başqa sözlə, dinləmələrdə münaqişənin tarixi yalnız erməni tərəfinin təqdim etdiyi çərçivədə izah olunub. Con Aybnerin çıxışında xüsusi yer tutan mövzulardan biri “Qərbi Azərbaycan” məsələsi olub. O, Prezident İlham Əliyevin bu ifadədən istifadə etməsini Ermənistan Respublikasına qarşı ərazi iddialarının sübutu kimi təqdim edib. Halbuki Azərbaycan tərəfinin mövqeyinə görə, Qərbi Azərbaycan konsepsiyası indiki Ermənistan ərazisindən müxtəlif dövrlərdə deportasiya edilmiş azərbaycanlıların hüquqlarının müdafiəsi, onların tarixi yurdlarına sülh yolu ilə qayıdışının təmin edilməsi ilə bağlıdır. Bu məsələnin avtomatik şəkildə ərazi iddiası kimi təqdim edilməsi Azərbaycanın irəli sürdüyü qayıdış hüququ gündəliyini təhrif edir.

Maraqlıdır ki, dinləmələrdə Ermənistanın Azərbaycana qarşı keçmiş ərazi iddiaları, işğal dövründə azərbaycanlılara qarşı törədilmiş cinayətlər və Qərbi Azərbaycandan deportasiya olunmuş insanların taleyi barədə bir kəlmə də danışılmayıb.

Aybner Azərbaycanın 2023-cü ilin sentyabrında keçirdiyi antiterror tədbirlərindən sonra Qarabağ ermənilərinin bölgəni tərk etməsini də “etnik təmizləmə” kimi təqdim edib. Halbuki Azərbaycan öz ərazisində suverenliyini bərpa etdiyini, erməni sakinlərin reinteqrasiyası üçün imkanlar yaratdığını bəyan etmişdi. Bakı bölgədə qalan erməni sakinlərin hüquqlarının Azərbaycan qanunları çərçivəsində təmin olunacağını açıqlamışdı.

Ermənipərəst konqresmen Kris Smit Vaşinqtonun Azərbaycan siyasətini pisləyib, Azərbaycanla ABŞ arasında münasibətlərin inkişafı və Bakının Vaşinqtonda artan diplomatik fəallığından narazılıq edib.

Qeyd olunduğu kimi, dinləmələrdə Azərbaycanla yanaşı, Türkiyə də hədəfə alınıb. Aybner Türkiyədə xristian icmalarının sayının azalmasını ölkənin siyasi və ideoloji xətti ilə əlaqələndirib. O, ABŞ Beynəlxalq Dini Azadlıq Komissiyasının Türkiyənin xüsusi nəzarət siyahısına salınması barədə tövsiyəsini xatırladıb. Kris Smit isə Türkiyənin dini azadlıqları pozan ölkələr siyahısına daxil edilməsini və Ankaraya qarşı sanksiyaların tətbiqini istəyib. O, Türkiyənin F-35 qırıcılarını əldə etməsi ehtimalını da tənqid edib. Dinləmələrin sonunda Aybner ABŞ administrasiyasını Azərbaycan və Türkiyəyə münasibətdə siyasətini dəyişməyə çağırıb. O, bu ölkələrə silah satışının, maliyyə yardımının və diplomatik dəstəyin dayandırılmasını istəyib.

Erməni Milli Komitəsinin (ANCA) icraçı direktoru Aram Hambaryan Vaşinqtonu hər iki ölkəyə qarşı təzyiq mexanizmlərindən istifadə etməyə çağırıb.

“İnsan hüquqları”, yoxsa siyasi təzyiq mexanizmi?

Bu “dinləmələr” bir daha göstərir ki, erməni lobbisi Azərbaycanla Ermənistan arasında formalaşan yeni reallıqları qəbul etmək niyyətində deyil. İnsan hüquqları və dini azadlıqlar kimi həssas mövzuların müzakirə predmetinə çevrilməsi və prinsiplərin yanlış, maraqları çərçivəsində qabardılması, tarixi faktların və münaqişənin səbəblərinin nəzərə alınmaması həmin təşəbbüsün obyektivliyinə ciddi şübhələr yaradır. Dinləmələrdə Azərbaycanın 30 ilə yaxın işğala məruz qalması, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən qətnamələr, bir milyondan artıq azərbaycanlının doğma yurdlarından didərgin salınması nədənsə diqqətdən kənarda qalıb. Halbuki insan hüquqları selektiv yanaşma ilə müdafiə edilə bilməz. Qarabağda onilliklər ərzində azərbaycanlılara qarşı törədilmiş zorakılıqlar, yaşayış məntəqələrinin dağıdılması, məscidlərin təhqir edilməsi və dini-mədəni abidələrin məhv olunması da eyni hüquqi və mənəvi qiyməti almalıdır. İnsan hüquqlarının müdafiəsi adı altında yalnız erməni tərəfinin təqdim etdiyi saxta “tarixçə”nin səsləndirilməsi isə müdafiəçilik deyil, siyasi qərəzdir. Xüsusilə də bu dinləmələrin yekununda Azərbaycan və Türkiyəyə hərbi yardımın, silah satışının və diplomatik dəstəyin dayandırılması tələbinin irəli sürülməsi göstərir ki, məqsəd Vaşinqtonun Cənubi Qafqaz siyasətinə təsir göstərmək, Azərbaycanın artan geosiyasi çəkisini məhdudlaşdırmaq və regionda yaranmış yeni güc balansını dəyişməkdir.



Azərbaycanın haqlı mövqeyi...

Dinləmələrdə xüsusi olaraq Prezident İlham Əliyevin Qərbi Azərbaycan ifadəsindən istifadəsinin Ermənistanın ərazi bütövlüyünə qarşı iddia kimi təqdim edilməsi erməni lobbisinin mövqeyindəki əsas ziddiyyətlərdən biridir. Azərbaycan tərəfinin irəli sürdüyü Qərbi Azərbaycan gündəliyinin mahiyyəti tarixi torpaqlardan deportasiya edilmiş azərbaycanlıların hüquqlarının tanınması, onların təhlükəsiz və ləyaqətli şəkildə doğma yurdlarına qayıtmaq imkanlarının yaradılmasıdır. Bu yanaşma hər hansı dövlətin suverenliyinə qarşı güc tətbiqini və ya sərhədlərin dəyişdirilməsini nəzərdə tutmur. Əksinə, könüllü, təhlükəsiz və ləyaqətli qayıdış beynəlxalq hüququn tanıdığı humanitar prinsiplərdən biridir. Maraqlıdır ki, erməni tərəfi Qarabağ ermənilərinin qayıdış hüququnu beynəlxalq gündəmdə saxlamağa çalışdığı halda, Ermənistan ərazisindən müxtəlif dövrlərdə qovulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının müzakirəsini ərazi iddiası kimi təqdim edir. Bu, açıq-aşkar ikili standartdır. Eyni zamanda, Qarabağ məsələsinə münasibətdə də oxşar yanaşma nümayiş etdirilir. Azərbaycan 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror tədbirləri nəticəsində özünün beynəlxalq səviyyədə tanınmış ərazilərində suverenliyini bərpa etdi. Paralel olaraq Qarabağdan köçən ermənilərin hüquqlarını müdafiə etdiyini iddia edənlərin Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların taleyinə susması onların insan hüquqları məsələsində nə qədər qeyri-obyektiv olduğunu ortaya qoyur.

Smit və Makqoverin ermənipərəst mövqeyi...

Bu “müzakirədə” fəallıq göstərənlərin siyasi kimliyi isə uzun illərdir ki, hamıya yaxından tanışdır. Məsələn, konqressmen Kris Smit uzun illərdir ki, erməni lobbisinin dirijor çubuğu ilə hərəkət edir. Bilavasitə onun fəal iştirakı ilə 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən “Azadlığa Dəstək” Aktına qəbul edilmiş 907-ci düzəlişlə Azərbaycana Amerikanın birbaşa yardımına qadağa qoyulmuşdu. Kris Smit ABŞ-ın “erməni soyqırımı”nı tanınması ilə bağlı ən çox fəallıq göstərən bir konqresmendir. O konqresdə ən fəal ermənipərəst kimi tanınır. Hətta 2015-ci ilin aprelində qondarma “erməni soyqırımının 100 illiyi” dinləməsi üzrə Helsinki komissiyasını belə təşkil etmişdi. Ardından isə “Azərbaycan demokratiya aktı” layihəsini irəli sürmüşdü ki, bu da ölkəmizə qarşı ən mühüm antimilli iddialardan sayıla bilərdi. Həmin dövrdə konqresmen Kris Smitin rəhbərlik etdiyi ABŞ Helsinki Komissiyası Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi barədə “Azərbaycan Demokratiya aktı” qanun layihəsini Konqresə təqdim etməklə ölkəmizə qarşı mühüm təbliğat kampaniyası başlatmışdı.

ABŞ Konqresinin Demokratlar Partiyasından olan üzvü Ceyms Makqoverin də Azərbaycana qarşı münasibəti uzun müddətdir erməni lobbisinin mövqeyi ilə üst-üstə düşür. O, Konqresin erməni məsələləri üzrə qrupunun üzvüdür və müxtəlif dövrlərdə Azərbaycana qarşı məhdudlaşdırıcı tədbirlərin tərəfdarı kimi çıxış edib. Makqover 2023-2024-cü illərdə Azərbaycanın sanksiyalaşdırılmasını, hərbi yardımın dayandırılmasını tələb edən bir sıra məktublara imza atıb, erməni tərəfinin mövqeyini müdafiə edən qanun layihələrini dəstəkləyib. 2025-ci ildə isə Azərbaycana qarşı sanksiyaların tətbiqi və ABŞ-ın hərbi yardımının məhdudlaşdırılması tələblərini əks etdirən təşəbbüslərə qoşulub. Erməni Milli Komitəsinin (ANCA) onun fəaliyyətinə 2024-cü ildə “A+” qiyməti verməsi də Makqoverin ermənipərəst siyasi xəttinin göstəricisidir.


P.İSMAYILOV

Azərbaycan-Türkiyə müttəfiqliyi erməni lobbisinin hədəfində

Dinləmələrdə Azərbaycanla yanaşı, Türkiyənin də hədəfə alınması təsadüfi deyil. Çünki Bakı ilə Ankara arasında formalaşmış müttəfiqlik münasibətləri Cənubi Qafqazda təhlükəsizlik, iqtisadi əməkdaşlıq və nəqliyyat-logistika əlaqələrinin inkişafında mühüm amildir. Azərbaycan və Türkiyənin əməkdaşlığını xristian icmaları üçün təhlükə kimi təqdim etmək isə siyasi reallıqlarla heç bir əlaqəsi olmayan süni qarşıdurma yaratmaq cəhdidir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada müxtəlif dini icmaların fəaliyyəti dövlət tərəfindən qanunvericilik əsasında tənzimlənir, dini konfessiyalar arasında münasibətlərin qorunması dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Ölkəmizin tolerantlıq və multikulturalizm təcrübəsi beynəlxalq platformalarda dəfələrlə nümayiş etdirilib. Eyni zamanda, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində xristian dini abidələrinin qorunması və bərpası istiqamətində həyata keçirilən tədbirlər də bu siyasətin praktik ifadəsidir. Türkiyəyə qarşı səsləndirilən ittihamlar da oxşar siyasi motivlərdən qaynaqlanır. Ankaranın F-35 proqramına qayıtmaq ehtimalının dini azadlıqlar mövzusu ilə eyni dinləmələrdə gündəmə gətirilməsi məsələnin əsl mahiyyətini göstərir: söhbət tək dini hüquqlardan deyil, Türkiyənin müstəqil xarici və müdafiə siyasətindən gedir. ABŞ-ın iki mühüm regional tərəfdaşına qarşı sanksiya və silah embarqosu tələbləri isə Vaşinqtonun öz strateji maraqları baxımından da suallar doğurur. Aram Hambaryanın və erməni lobbisinin digər nümayəndələrinin çağırışları bir daha təsdiqləyir ki, onlar Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında maraqlı olmaq əvəzinə, ABŞ-ın bu prosesə təzyiq vasitəsilə müdaxiləsinə çalışırlar. Halbuki Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün Ermənistanın qonşuları ilə normal münasibətlər qurması, ərazi iddialarından imtina etməsi və regional əməkdaşlığa qoşulması vacibdir. Azərbaycanın və Türkiyənin beynəlxalq mövqelərini zəiflətmək cəhdləri isə bu məqsədə xidmət etmir, əksinə, regionda etimad mühitinin formalaşmasına mane olur.

Makronun büdcə təşəbbüsü tənqid edilib

Fransa Prezidenti Emmanuel Makronun büdcə intizamı ilə bağlı “qızıl qayda”nı Konstitusiyaya daxil etmək təşəbbüsü siyasi mübahisələrə səbəb olub. Avropa Parlamentinin deputatı, Respublikaçılar (LR) partiyasının üzvü Fransua-Kavye Bellami bu təklifi sərt tənqid edərək Makronun əvvəlcə dövlət büdcəsini tükəndirdiyini, indi isə ona “qıfıl vurmaq” istədiyini bildirib.



“Cnews” və “Europe 1” telekanallarının birgə efirində çıxış edən Bellami Makronun təşəbbüsünü qeyri-səmimi adlandırıb. O, 2011-ci ildə Fransua Fiyonun irəli sürdüyü büdcə qaydasını xatırladaraq, Fransanın dövlət borcunun həmin vaxt 1,8 trilyon avro olduğu halda, hazırda 3,5 trilyon avronu keçdiyini vurğulayıb. Deputatın sözlərinə görə, indi gəlir vergisinin bütövlükdə borcun faizlərinin ödənilməsinə yönəldilməsi ölkənin maliyyə vəziyyətinin ağırlığını göstərir.

Deputat bildirib ki, büdcə intizamı prinsipi artıq mövcuddur və Fransa Avropa tərəfdaşları qarşısında götürdüyü öhdəliklərə əməl etməlidir. Onun sözlərinə görə, ölkə 2019-cu ildən bəri büdcə kəsirinin 3 faiz həddini qoruyub saxlaya bilməyib.

Makronun təşəbbüsü sağçı mərkəz və sağçı siyasi qüvvələr tərəfindən dəstəklənir. Respublikaçılar, “Milli Birlik” (RN), “Horizons” və “Renaissance” partiyalarının nümayəndələri büdcə intizamının Konstitusiyada təsbit edilməsinə müsbət yanaşırlar. Sol qüvvələr isə bu təşəbbüsə qarşı çıxır. Onlar hesab edirlər ki, belə bir konstitusion məhdudiyyət gələcək hökumətlərin iqtisadi siyasət seçimlərini ciddi şəkildə daralda bilər.

Qətər ABŞ və İranla danışıqların bərpası üzərində işləyir

Qətər hakimiyyəti Vaşinqton və Tehran arasında danışıqlar prosesinin bərpa edilməsi üçün səylər göstərir.

Bu barədə “Al Jazeera” telekanalına Qətərin hökumət başçısı, xarici işlər naziri şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani bildirib.

“Biz İran və Birləşmiş Ştatlarla birlikdə danışıqlar prosesini bərpa etməyə çalışırıq”, - o deyib.

Qətərin Baş naziri vurğulayıb ki, Yaxın Şərqdə vəziyyət ABŞ və İran arasında yeni eskalasiyaya tab gətirməyəcək. Vaşinqtonla ikitərəfli münasibətlərə toxunan baş nazir qeyd edib ki, Doha müdafiə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə can atır.

Qətər ABŞ və İran arasında danışıqlarda əsas vasitəçilərdən biri kimi çıxış edir. Noyabrın 23-də şeyx Məhəmməd bin Əbdülrəhman bin Casim Al Tani Vaşinqtonda ABŞ Dövlət katibi Marko



Rubio ilə görüş keçirib. Amerikanın xarici siyasət idarəsinin məlumatına görə, tərəflər təhdidlərin qarşısının alınmasını və Yaxın Şərqdə sabitliyin təmin edilməsini müzakirə ediblər.

25 noyabr 2026-cı il, çərşənbə № 215 (7282)

BREXİT-dən sonra Avropanın yeni istiqaməti

Balkanlar Avropa İttifaqına necə daxil olacaq?

Avropanın siyasi xəritəsində yeni geosiyasi rəqabət mərhələsi başlayıb. Bu dəfə söhbət müharibələrdən, sərhədlərin dəyişdirilməsindən və ya ərazi mübahisələrindən yox, Avropa İttifaqının gələcək siyasi və iqtisadi sərhədlərinin hansı istiqamətdə genişlənəcəyindən gedir. Bir tərəfdə vaxtilə Avropa inteqrasiyasının aparıcı iştirakçılarından biri olmuş, lakin sonradan İttifaqı tərk etmiş Böyük Britaniya, digər tərəfdə isə Avropanın siyasi və iqtisadi sisteminə qoşulmağa çalışan Qərbi Balkan ölkələri dayanır. Bu iki fərqli istiqamət müasir Avropanın qarşısında duran mühüm sualı gündəmə gətirir: Avropa İttifaqı gələcəkdə daha geniş siyasi birlik kimi formalaşacaq, yoxsa mövcud üzvlərin maraqları və daxili ziddiyyətləri onun genişlənmə imkanlarını məhdudlaşdıracaq?

Hazırda Avropa İttifaqının 27 üzvü var. Lakin bu birlik yarandığı gündən indiki siyasi və iqtisadi quruluşa malik olmayıb. Avropa inteqrasiyasının əsası İkinci Dünya müharibəsindən sonra, Avropa dövlətlərinin yeni hərbi qarşıdurmaların qarşısını almaq, iqtisadi bərpanı sürətləndirmək və qarşılıqlı asılılıq yaratmaq məqsədilə əməkdaşlığa başlamasıyla qoyulub. 1951-ci ildə Fransa, Almaniya Federativ Respublikası, İtaliya, Belçika, Niderland və Lüksemburq Avropa Kömür və Polad Birliyini yaratdı. 1957-ci ildə imzalanmış Roma müqavilələri isə Avropa İqtisadi Birliyinin formalaşmasına yol açdı. Sonrakı onilliklər ərzində bu inteqrasiya modeli genişlənərək vahid bazarı, ümumi institutları və ortaq hüquqi məkanı əhatə edən müasir Avropa İttifaqına çevrildi. 1973-cü ildə Böyük Britaniya, İrlandiya və Danimarkanın, 1981-ci ildə Yunanıstanın, 1986-cı ildə İspaniya və Portuqaliyanın, 1995-ci ildə Avstriya, Finlandiya və İsveçin üzvlüyü genişlənmənin ardıcıl mərhələləri oldu. 2004-cü ildə Mərkəzi və Şərqi Avropanın on dövlətinin eyni vaxtda İttifaqa qəbul edilməsi isə onun tarixində ən böyük genişlənmə kimi yadda qaldı. 2007-ci ildə Bolqarıstan və Rumıniya, 2013-cü ildə Xorvatiya Avropa İttifaqının üzvünə çevrildi.

Lakin Avropa inteqrasiyası tarixində bütün proseslər genişlənmə istiqamətində inkişaf etmədi. Bu tendensiyanın ən mühüm nümunəsi Böyük Britaniyanın Avropa İttifaqından çıxması oldu. 23 iyun 2016-cı ildə keçirilmiş referendumda iştirakçıların 51,9 faizi ölkənin İttifaqı tərk etməsinə səs verdi. Referendumun nəticəsi yalnız Avropa institutlarına münasibətin ifadəsi deyildi, Britaniya cəmiyyətində milli suverenlik, miqrasiya, iqtisadi müstəqillik, dövlət büdcəsi və siyasi qərarvermə mexanizmləriylə bağlı uzun müddət yığılıb qalmış narazılıqların siyasi ifadəsi idi. Brexit tərəfdarları hesab edirdilər ki, ölkənin gələcəyi ilə bağlı əsas qərarlar Brüsseldə yox, Londonun özündə qəbul edilməlidir. Onların fikrincə, Avropa İttifaqının ümumi qaydaları Britaniyanın iqtisadi və siyasi imkanlarını məhdudlaşdırır, milli hökumətin müstəqil qərarvermə səlahiyyətlərini zəiflədir.


Böyük Britaniya 31 yanvar 2020-ci ildə hüquqi baxımdan Avropa İttifaqını tərk etdi. Həmin ilin sonunadək davam edən keçid dövründən sonra - 1 yanvar 2021-ci ildən ölkə artıq Aİ-nin vahid bazarının və gömrük ittifaqının üzvü deyildi. Bununla belə Brexit Britaniyanın Avropadan coğrafi, iqtisadi və siyasi baxımdan ayrılması demək olmadı. London Avropa dövlətləriylə ticarət, təhlükəsizlik, müdafiə və diplomatik münasibətlərini yeni hüquqi mexanizmlər əsasında davam etdirdi. Bu təcrübə göstərdi ki, Avropa İttifaqına üzvlük dövlətlərin dəyişməz və geridönməz siyasi seçimi deyil, dövlətlər müəyyən tarixi şəraitdə inteqrasiyanı dərinləşdirmək, yaxud mövcud münasibətlərin formasını dəyişdirmək qərarı verə bilər.

Maraqlıdır ki, Böyük Britaniya Avropa İttifaqından çıxarkən Qərbi Balkanın altı dövləti tam əks istiqamətdə hərəkət edir. Albaniya, Bosniya və Herseqovina, Kosovo, Monteneqro, Şimali Makedoniya və Serbiya Avropa inteqrasiyasını özlərinin uzunmüddətli siyasi və iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri hesab edir. İlk baxışda bu, müəyyən paradoks təsiri bağışlayır: bir dövlət onilliklər ərzində iştirak etdiyi siyasi-iqtisadi birlikdən ayrılır, digər dövlətlər isə həmin birliyə daxil olmaq üçün uzun illər islahat aparır. Lakin bu fərq təzadlı deyil, çünki hər bir dövlətin inteqrasiyaya münasibəti onun milli maraqları, iqtisadi imkanları, tarixi təcrübəsi və geosiyasi mövqeyilə müəyyənləşir.

Qərbi Balkanın Avropa İttifaqı üçün əhəmiyyəti ilk növbədə coğrafi mövqeyinə bağlıdır. Region Mərkəzi Avropa ilə Aralıq dənizi hövzəsi arasında mühüm nəqliyyat və iqtisadi əlaqə məkanıdır. Eyni zamanda, Balkanlarda sabitliyin qorunması Avropanın cənub-şərq sərhədlərinin təhlükəsizliyi, enerji təchizatı, nəqliyyat marşrutlarının fasiləsiz fəaliyyəti və regional iqtisadi əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyır. Avropa İttifaqı regionun ən böyük ticarət tərəfdaşı, əsas investorlarından biri və mühüm maliyyə donorudur. 2024-cü ildə Aİ ilə Qərbi Balkan arasında mal ticarətinin həcminin 83 milyard avronu keçməsi onların qarşılıqlı iqtisadi asılılığının miqyasını göstərir. Bu rəqəm həm də onu təsdiqləyir ki, Qərbi Balkanın Avropa iqtisadiyyatından kənarda qalması real iqtisadi baxımdan mümkün olmayan ssenaridir.

Lakin regionun strateji əhəmiyyəti yalnız ticarət və investisiyalarla məhdudlaşmır. Qərbi Balkan Avropa İttifaqı, Rusiya, Çin və Türkiyənin maraqlarının müəyyən mənada kəsişdiyi geosiyasi məkandır. Çin regionda infrastruktur, liman, avtomobil və dəmir yolları, enerji və sənaye layihələrinə investisiya qoymaqla iqtisadi mövqelərini genişləndirir. Rusiya isə xüsusilə Serbiya ilə tarixi, siyasi, mədəni və enerji əlaqələri vasitəsilə təsir imkanlarını qorumağa çalışır. Türkiyə regionda iqtisadi əməkdaşlıq, investisiyalar, humanitar əlaqələr və diplomatik münasibətlər əsasında fəallığını davam etdirir. Bu dövlətlərin məqsədləri və regiondakı fəaliyyət mexanizmləri fərqli olsa da, onların mövcudluğu Avropa İttifaqının Qərbi Balkana münasibətində geosiyasi amilin əhəmiyyətini artırır.

2022-ci ilin fevralında Rusiyanın Ukraynaya genişmiqyaslı hərbi müdaxiləsindən sonra Avropa İttifaqının genişlənmə siyasətində də ciddi dəyişiklik baş verdi. Əvvəllər əsasən demokratikləşmə, iqtisadi inkişaf və hüquqi uyğunlaşma vasitəsi kimi nəzərdən keçirilən genişlənmə artıq Avropanın təhlükəsizlik arxitekturasının mühüm elementinə çevrildi. Brüssel anladı ki, Avropanın qonşuluğunda siyasi qeyri-sabitlik, institusional zəiflik və geosiyasi boşluq yalnız həmin regionun yox, bütövlükdə Avropa qitəsinin təhlükəsizliyi üçün risk yaradır. Bu səbəbdən Qərbi Balkanın inteqrasiyası Avropa İttifaqının strateji maraqları baxımından daha aktual xarakter aldı.



Bu siyasətin iqtisadi əsaslarından biri 2023-cü ildə təqdim edilmiş Qərbi Balkan üçün Artım Planıdır. 2024-2027-ci illəri əhatə edən proqram çərçivəsində region ölkələri üçün 6 milyard avro həcmində maliyyə dəstəyi nəzərdə tutulub. Bunun 2 milyard avrosu qrantlardan, 4 milyard avrosu isə güzəştli kreditlərdən ibarətdir. Proqramın əsas məqsədi Qərbi Balkan dövlətlərinin Avropa İttifaqının vahid bazarına mərhələli şəkildə yaxınlaşmasını, regional iqtisadi inteqrasiyanın dərinləşdirilməsini və institusional islahatların sürətləndirilməsini təmin etməkdir. Burada mühüm məqam maliyyə vəsaitlərinin avtomatik ayrılmamasıdır: ölkələr müəyyən edilmiş islahat gündəliklərini yerinə yetirməli, iqtisadi və hüquqi dəyişiklikləri həyata keçirməli, korrupsiyaya qarşı mübarizə, məhkəmə müstəqilliyi, dövlət idarəçiliyi və demokratik institutların fəaliyyəti sahəsində konkret nəticələr nümayiş etdirməlidir.

Beləliklə, Avropa İttifaqı namizəd ölkələrə yalnız gələcək üzvlük vədi verməklə kifayətlənmir, həmin üzvlüyün iqtisadi üstünlüklərinin bir hissəsini əvvəlcədən təqdim etməyə çalışır. Bu, xüsusilə vacibdir, çünki onilliklər ərzində davam edən danışıqlar namizəd dövlətlərdə Avropaya inteqrasiyanın ictimai dəstəyini zəiflədə bilər. Vətəndaşlar üzvlüyün yalnız gələcəkdə qazanılacaq siyasi status yox, gündəlik həyatda hiss edilən iqtisadi və sosial üstünlüklər yaratmasını gözləyirlər. Mobil rabitə, nəqliyyat, enerji, rəqəmsal xidmətlər, təhsil və əmək bazarına çıxış imkanlarının genişləndirilməsi bu baxımdan əhəmiyyətlidir.

2026-cı ilin noyabr ayının 4-də Avropa Komissiyasının açıqladığı yeni Genişlənmə Paketi isə bu siyasətin daha konkret mərhələyə keçdiyini göstərdi. Avropa Komissiyasının illik hesabatında namizəd ölkələrin son bir il ərzində göstərdiyi nəticələr qiymətləndirildi, gələcək islahatların prioritetləri müəyyənləşdirildi və ilk dəfə ən irəlidə olan dörd ölkə - Monteneqro, Albaniya, Moldova və Ukrayna üçün üzvlük danışıqlarının növbəti mərhələlərini əhatə edən konkret yol xəritələri təqdim olundu. Bu, genişlənmə siyasətində mühüm yenilikdir, çünki Brüssel artıq yalnız ümumi siyasi məqsədlər və tövsiyələr irəli sürmür, eyni zamanda namizəd ölkələrin qarşısında konkret mərhələlər, vaxt hədəfləri və ölçülə bilən nəticələr müəyyənləşdirir.

Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen yeni sənədi təqdim edərkən genişlənmə vədinin real nəticələrə çevrilməsinin mümkün olduğunu bildirdi. Aİ-nin xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas isə genişlənmənin Avropanın təhlükəsizliyi, geosiyasi çəkisi və iqtisadi imkanları baxımından əhəmiyyətini vurğuladı. Onun fikrincə, daha böyük Avropa İttifaqı yalnız daha geniş bazar deyil, həm də beynəlxalq münasibətlərdə daha güclü siyasi aktor deməkdir. Yeni hesabatda ilk dəfə təhlükəsizlik və müdafiə məsələlərinə ayrıca diqqət yetirilməsi də təsadüfi deyil. Müasir geosiyasi şəraitdə namizəd ölkələrin Aİ-nin ümumi xarici və təhlükəsizlik siyasətinə uyğunlaşması, müdafiə əməkdaşlığında iştirakı və hibrid təhdidlərə qarşı mübarizə imkanları üzvlük prosesinin mühüm elementlərinə çevrilib.

Bu baxımdan Monteneqro hazırda Avropa İttifaqına üzvlük istiqamətində ən irəlidə olan ölkədir. Ölkə 2008-ci ilin dekabrında üzvlük üçün müraciət edib, 2010-cu ildə namizəd statusu alıb, 2012-ci ilin iyununda isə üzvlük danışıqlarına başlayıb. Monteneqronun üstünlüklərindən biri Avropa və Avro-Atlantik inteqrasiyasını ardıcıl şəkildə dövlət siyasətinin əsas istiqaməti kimi müəyyənləşdirməsidir. Ölkə 2017-ci ildə NATO-ya üzv olub, bununla da müdafiə və təhlükəsizlik sahəsində Qərb strukturlarına inteqrasiyasını gücləndirib. Avropa İttifaqına üzvlük isə onun növbəti strateji məqsədidir.

Noyabrın 4-də açıqlanmış Avropa Komissiyası hesabatına əsasən, Monteneqro 33 danışıqlar fəslinin hamısını açıb və onlardan 21-ni müvəqqəti bağlayıb. Bu göstərici ölkəni digər Qərbi Balkan namizədlərindən xeyli irəli çıxarır. Daha əhəmiyyətlisi budur ki, Avropa Komissiyası Monteneqronun üzvlük müqaviləsinin hazırlanması istiqamətində işlərin artıq ciddi mərhələyə çatdığını və ölkənin maliyyə paketiylə bağlı təkliflərin təqdim edildiyini bildirib. Komissiyanın qiymətləndirməsinə görə, üzv dövlətlərin razılığı və islahatların davam etdirilməsi şərtilə qalan danışıqlar fəsillərinin 2026-cı ilin sonunadək müvəqqəti bağlanması realdır. Reuters agentliyinin 4 noyabr 2026-cı il tarixli məlumatına əsasən, Monteneqro ilə üzvlük müqaviləsinin 2027-ci ilin iyununda imzalanması perspektivi nəzərdən keçirilir. Ölkənin 2028-ci ildə Avropa İttifaqının 28-ci üzvü olmaq məqsədi də məhz bu siyasi və hüquqi hazırlıq üzərində qurulub.

Lakin Monteneqronun qarşısında hələ də ciddi vəzifələr dayanır. Məhkəmə sisteminin müstəqilliyinin möhkəmləndirilməsi, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə, dövlət institutlarının effektivliyinin artırılması və siyasi qüvvələr arasında davamlı razılaşmanın təmin edilməsi üzvlük prosesinin son mərhələsində xüsusi əhəmiyyət daşıyır, çünki Avropa İttifaqına üzvlük yalnız danışıq fəsillərinin bağlanmasıyla tamamlanmır, üzvlük müqaviləsinin imzalanmasından sonra onun bütün mövcud üzv dövlətlər tərəfindən ratifikasiyası tələb olunur. Buna görə 2028-ci il Monteneqro üçün real siyasi hədəf olsa da, əvvəlcədən təmin edilmiş üzvlük tarixi kimi qiymətləndirilməməlidir.

Albaniya da son illər Avropaya inteqrasiya istiqamətində sürətli irəliləyiş əldə edən ölkələr sırasındadır. Ölkə 2009-cu ildə üzvlük üçün müraciət edib, 2014-cü ildə namizəd statusu alıb, 2022-ci ildə isə üzvlük danışıqlarına başlayıb. Albaniyanın üstünlüklərindən biri xarici siyasət istiqamətinin Avropa İttifaqının ümumi mövqeyilə yüksək səviyyədə uzlaşmasıdır. Ölkə 2009-cu ildən NATO üzvüdür və Avropaya inteqrasiyanı iqtisadi modernləşmə, siyasi sabitlik və beynəlxalq mövqelərin gücləndirilməsi vasitəsi hesab edir.

Noyabrın 4-də təqdim olunmuş hesabat Albaniyanın danışıqlarda mühüm mərhələyə çatdığını təsdiqlədi. Ölkə bütün danışıq klasterlərini açıb, hüququn aliliyi ilə bağlı əsas aralıq meyarları yerinə yetirib və dörd danışıqlar fəslinin müvəqqəti bağlanmasına imkan yaradan mərhələyə çatıb. Avropa Komissiyası Albaniyanın 2027-ci ilin sonunadək üzvlük danışıqlarını yekunlaşdırmaq məqsədini iddialı, lakin real hesab edir. Bunun üçün islahatların sürətinin qorunması, parlamentdə siyasi dialoqun genişləndirilməsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi və korrupsiyaya qarşı mübarizənin davam etdirilməsi vacibdir.

Bununla belə, Albaniyanın qarşısında yalnız texniki və hüquqi məsələlər dayanmır. Ölkədə siyasi qütbləşmə, hökumət və müxalifət arasında qarşıdurma, vətəndaş cəmiyyətinin narahatlıqları və korrupsiya ilə bağlı problemlər Avropa Komissiyasının diqqət mərkəzindədir. 2026-cı il hesabatında Albaniyada demokratik keçid dövründən bəri ən böyük vətəndaş səfərbərliyinin qeydə alındığı da vurğulanıb. Bu fakt göstərir ki, Avropaya inteqrasiyanın uğuru yalnız hökumətin Brüssel qarşısında götürdüyü öhdəliklərdən yox, cəmiyyətin islahatlara inamından və siyasi institutların ictimai etimad qazanmasından da asılıdır.

Serbiyanın vəziyyəti isə tam fərqlidir. Ölkə 2009-cu ildə Avropa İttifaqına üzvlük üçün müraciət edib, 2012-ci ildə namizəd statusu alıb, 2014-cü ildə isə danışıqlara başlayıb. Lakin Serbiyanın Avropa inteqrasiyası uzun müddətdir ki, xarici siyasətdəki geosiyasi seçimlər və Kosovo ilə münasibətlər səbəbindən mürəkkəb xarakter daşıyır. Belqrad bir tərəfdən Avropa İttifaqı ilə iqtisadi əlaqələri genişləndirir, digər tərəfdən Rusiya ilə tarixi, siyasi və enerji münasibətlərini qorumağa çalışır. Bu ikitərəfli yanaşma Serbiyanın Aİ-nin ümumi xarici və təhlükəsizlik siyasətinə uyğunlaşma səviyyəsinə mənfi təsir göstərir.

Avropa Komissiyasının 2026-cı il hesabatında Serbiyanın üzvlük danışıqlarında əhəmiyyətli irəliləyiş əldə etmədiyi açıq şəkildə qeyd olunub. Ölkənin Aİ qanunvericiliyinə və texniki standartlara uyğunlaşması istiqamətində müəyyən fəaliyyət göstərilsə də, demokratik institutların vəziyyəti, məhkəmə hakimiyyətinin müstəqilliyi, fundamental hüquqlar və siyasi qütbləşmə ilə bağlı narahatlıqlar davam edir. Hesabatda Serbiyanın Aİ-nin ümumi xarici və təhlükəsizlik siyasətinə uyğunlaşma səviyyəsinin aşağı olduğu da vurğulanıb. Beləliklə, Serbiyanın üzvlük perspektivini yalnız açılmış danışıqlar fəsillərinin sayı ilə qiymətləndirmək düzgün olmaz; əsas məsələ ölkənin siyasi davranışının Avropa İttifaqının fundamental prinsiplərinə nə dərəcədə uyğunlaşmasıdır.

Serbiyanın qarşısında duran digər mühüm məsələ Kosovo ilə münasibətlərin normallaşdırılmasıdır. Kosovo 2008-ci ilin fevral ayının 17-də müstəqilliyini elan edib, lakin Serbiya onun müstəqilliyini tanımır. Bundan əlavə, Avropa İttifaqının beş üzvü - İspaniya, Yunanıstan, Kipr, Rumıniya və Slovakiya da Kosovonu müstəqil dövlət kimi tanımayıb. Bu vəziyyət Kosovo məsələsini iki tərəf arasında siyasi mübahisə olmaqdan çıxararaq Avropa İttifaqının öz daxilində də hüquqi və diplomatik problemə çevirir.

Brüssel Serbiya və Kosovo arasında münasibətlərin normallaşdırılmasını hər iki tərəfin Avropa perspektivinin əsas şərtlərindən biri hesab edir. 2023-cü ildə Avropa İttifaqının vasitəçiliyilə əldə edilmiş razılaşma və onun icrasına dair öhdəliklər bu prosesin mühüm hüquqi-siyasi çərçivəsini təşkil edir. Lakin tərəflər arasında etimadın zəif olması, Kosovo serblərinin siyasi təmsilçiliyi, şimal bölgələrində təhlükəsizlik və yerli idarəetmə ilə bağlı problemlər razılaşmaların icrasını çətinləşdirir. Bu səbəbdən Serbiyanın Avropa İttifaqına üzvlüyü həm demokratik və institusional islahatlardan, həm də regionda davamlı siyasi sabitliyin təmin edilməsindən asılıdır.

Kosovonun özünün Avropa İttifaqına inteqrasiyası da mürəkkəb prosesdir. Ölkə 2022-ci ilin dekabrında üzvlük üçün rəsmi müraciət edib, lakin hələ namizəd statusu almayıb. Kosovo ilə bağlı hesabatında Avropa Komissiyası mühüm bir məqamı açıqlayıb: Avropa İttifaqı Şurası tələb edəcəyi təqdirdə Komissiya Kosovonun üzvlük müraciəti haqqında rəsmi rəy hazırlamağa hazırdır. Bu, Kosovonun üzvlük prosesinin avtomatik olaraq növbəti mərhələyə keçdiyi anlamına gəlmir, lakin onun müraciətinin gələcəkdə institusional qiymətləndirilməsinə imkan yaradır.

Kosovonun qarşısında dövlət institutlarının gücləndirilməsi, məhkəmə hakimiyyətinin müstəqilliyi, insan hüquqlarının qorunması, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizə kimi məsələlər dayanır. Avropa Komissiyasının son hesabatında ölkədə uzunmüddətli institusional böhranın islahat prosesini ləngitdiyi, lakin siyasi razılaşma nəticəsində prezidentin seçilməsiylə böhranın müəyyən dərəcədə aradan qaldırıldığı bildirilir. Hesabatda Kosovonun Aİ-nin ümumi xarici və təhlükəsizlik siyasətinə tam uyğunlaşması müsbət qiymətləndirilib. Bununla yanaşı, Serbiya ilə münasibətlərin normallaşdırılması üzrə bütün öhdəliklərin yerinə yetirilməsi vacib hesab olunur. Avropa İttifaqının Kosovo üzrə EULEX missiyası da hüququn aliliyi və təhlükəsizlik institutlarının inkişafına dəstək verməkdə davam edir. Beləliklə, Kosovo üçün Avropaya inteqrasiya yalnız iqtisadi modernləşmə deyil, həm də beynəlxalq legitimliyin və dövlət institutlarının möhkəmləndirilməsi məsələsidir.

Bosniya və Herseqovinanın vəziyyəti isə Qərbi Balkanda institusional mürəkkəbliyin ən bariz nümunəsidir. 1995-ci ildə imzalanmış Deyton Sülh Sazişi ölkədə müharibəni dayandırsa da, mürəkkəb dövlət idarəçiliyi sistemi formalaşdırıb. Bosniya və Herseqovina - Bosniya və Herseqovina Federasiyası və Serb Respublikası adlı iki əsas entitetdən, eləcə də xüsusi statusa malik Brçko dairəsindən ibarətdir. Dövlət səviyyəsində qərarların qəbulunda müxtəlif etnik və siyasi qüvvələrin iştirakı müəyyən tarazlıq yaratsa da, bir çox halda siyasi razılaşmaların əldə olunmasını çətinləşdirir. Bu isə Avropa İttifaqının tələb etdiyi qanunvericilik və institusional islahatların ləngiməsinə səbəb olur.

Bosniya və Herseqovina 2016-cı ildə Aİ-yə üzvlük üçün müraciət edib, 2022-ci ilin dekabrında namizəd statusu alıb. 2024-cü ilin martında Avropa İttifaqı Şurası üzvlük danışıqlarının açılması barədə siyasi qərar qəbul edib, lakin bu qərar danışıqların bütün praktiki mərhələlərinin avtomatik başladılması demək deyil. Ölkə qarşısında zəruri hüquqi və institusional şərtlərin yerinə yetirilməsi və Avropa standartlarına uyğun islahatların həyata keçirilməsi vəzifəsi qalır.

Noyabr hesabatında Bosniya və Herseqovinanın Avropaya inteqrasiyanı strateji məqsəd kimi bəyan etməsinə baxmayaraq bu istiqamətdən faktiki uzaqlaşdığı qeyd olunub. Siyasi ritorikanın sərtləşməsi, bölücü bəyanatlar və Avropa İttifaqına qarşı yönəlmiş narrativlər islahatların həyata keçirilməsinə mənfi təsir göstərib. Bu vəziyyət göstərir ki, ölkənin Avropaya inteqrasiyası üçün siyasi bəyanatlar yetmir, mərkəzi dövlət institutlarının səlahiyyətləri və fəaliyyəti, siyasi qüvvələr arasında əməkdaşlıq, hüquqi sabitlik və Deyton sisteminin yaratdığı institusional problemlərin həlli vacibdir.

Şimali Makedoniyanın Avropa İttifaqına üzvlük tarixi isə başqa bir mühüm problemi - ikitərəfli siyasi və tarixi mübahisələrin genişlənmə prosesinə təsirini nümayiş etdirir. Ölkə 2004-cü ildə üzvlük üçün müraciət edib, 2005-ci ildə namizəd statusu alıb. Lakin əvvəlcə Yunanıstanla dövlətin adı ətrafında yaranan mübahisə danışıqların başlanmasını uzun illər gecikdirdi. 2018-ci ildə imzalanmış Prespa Sazişi və ölkənin adının Şimali Makedoniya olaraq dəyişdirilməsi bu problemin aradan qaldırılmasına imkan verdi. Fəqət bundan sonra Bolqarıstanla tarixi, dil və milli kimlik məsələləriylə bağlı fikir ayrılıqları yeni maneəyə çevrildi.


2022-ci ildə üzvlük danışıqlarının başlanması üçün siyasi mərhələ açıldı. Ancaq prosesin növbəti mərhələyə keçməsi üçün Şimali Makedoniya Konstitusiyasında dəyişiklik etməli və bolqar icmasının konstitusion çərçivədə tanınmasıyla bağlı üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Avropa Komissiyasının 2026-cı il hesabatında bu dəyişikliklərin hələ qəbul edilmədiyi xüsusi vurğulanıb. Bununla belə Şimali Makedoniyanın Artım Planı çərçivəsində islahatların həyata keçirilməsində fəallıq göstərdiyi və müəyyən nəticələr əldə etdiyi də qeyd olunur. Bu ölkənin təcrübəsi göstərir ki, Avropa inteqrasiyası təkcə iqtisadi və hüquqi uyğunlaşma prosesi deyil; namizəd dövlətin qonşularla münasibətləri, tarixi mübahisələri və üzv dövlətlərlə əldə etdiyi siyasi razılaşmalar da üzvlük perspektivinə ciddi təsir göstərə bilər.

Beləliklə, Qərbi Balkanın altı ölkəsi eyni strateji məqsədə doğru hərəkət etsə də, onların Avropa İttifaqına gedən yolları birbirindən xeyli fərqlənir. Monteneqro üzvlük müqaviləsinin hazırlanması mərhələsinə yaxınlaşıb; Albaniya danışıqların yekunlaşdırılması üçün 2027-ci ili hədəfləyir; Serbiya xarici siyasət istiqaməti, demokratik institutlar və Kosovo ilə münasibətlər məsələsində ciddi çətinliklərlə üzləşir; Kosovo beynəlxalq tanınma və dövlət institutlarının möhkəmləndirilməsi problemlərini həll etməlidir; Bosniya və Herseqovinada siyasi parçalanma və mürəkkəb idarəetmə sistemi islahatları ləngidir; Şimali Makedoniya isə konstitusiya dəyişiklikləri ilə bağlı siyasi maneələri aradan qaldırmalıdır.

Noyabrın 4-də təqdim edilmiş Genişlənmə Paketinin ən mühüm nəticələrindən biri də Avropa İttifaqının artıq bütün namizəd dövlətlərə eyni yanaşma sərgiləməməsidir. Brüssel hər bir ölkənin əldə etdiyi real nəticələrə uyğun fərqli inteqrasiya tempi müəyyənləşdirir. Bu yanaşma üzvlük prosesinin ləyaqət və nəticə prinsipinə əsaslandığını göstərir. Daha sürətli islahat aparan və siyasi öhdəliklərini yerinə yetirən ölkə daha tez irəliləyə bilər. Bununla belə Aİ-nin bu siyasətinin uğuru yalnız namizəd dövlətlərin fəaliyyətindən asılı deyil. Üzv dövlətlərin öz aralarındakı siyasi razılaşmalar, milli maraqlar və genişlənmə ilə bağlı qərarları da prosesin sürətinə təsir göstərir. Bu məsələdə Avropa İttifaqının özünün institusional hazırlığı xüsusi əhəmiyyət daşıyır. Yeni üzvlərin qəbul edilməsi ümumi büdcənin yenidən bölüşdürülməsini, Avropa Parlamentində təmsilçilik məsələlərinin həllini, Avropa Şurası və Aİ Şurasında qərarvermə mexanizmlərinin təkmilləşdirilməsini, kənd təsərrüfatı və regional inkişaf siyasətinin yenidən nəzərdən keçirilməsini tələb edə bilər. Hazırda 27 üzv dövlət arasında xarici siyasət, təhlükəsizlik, iqtisadi prioritetlər və büdcə məsələlərində mövcud olan fikir ayrılıqları daha böyük İttifaqda qərar qəbul edilməsini çətinləşdirə bilər. Buna görə Avropa Komissiyasının 2026-cı il genişlənmə sənədlərində yalnız namizəd dövlətlərin yox, İttifaqın özünün də gələcək üzvlüyə hazırlanması məsələsi ön plana çıxır.

Bu prosesdə Ukrayna və Moldovanın Avropaya inteqrasiyası da ayrıca əhəmiyyət daşıyır. Hər iki ölkə 2022-ci ildə Aİ-yə üzvlük üçün müraciət edib və sonrakı dövrdə namizəd statusu əldə edib. Ukrayna müharibə şəraitində dövlət institutlarını və iqtisadiyyatını Avropa standartlarına uyğunlaşdırmağa çalışır. Moldova isə xarici təzyiqlərə və təhlükəsizlik risklərinə baxmayaraq Avropaya inteqrasiyanı əsas strateji istiqamət kimi davam etdirir. Noyabr hesabatında hər iki ölkənin üzvlük danışıqlarında irəliləyiş əldə etdiyi və yeni yol xəritələrinə salındığı təsdiqlənib. Bu isə göstərir ki, Avropa İttifaqının genişlənməsi gələcəkdə yalnız Balkanlarla məhdudlaşmayacaq, Şərqi Avropada da yeni siyasi reallıq yaradacaq. Bütün bu proseslərin fonunda Brexit-in Avropa İttifaqının gələcəyi üçün hansı nəticələr doğurduğu sualı yenidən aktuallaşır. Böyük Britaniya İttifaqdan ayrılmaqla milli qərarvermə imkanlarını artırmağa çalışdı, lakin Brexitdən sonra ticarət münasibətlərində yaranan yeni maneələr, iqtisadi əlaqələrin hüquqi baxımdan mürəkkəbləşməsi və əmək bazarında meydana çıxan dəyişikliklər üzvlükdən kənarda qalmağın da müəyyən iqtisadi və siyasi xərcləri olduğunu göstərdi. Qərbi Balkan ölkələri isə bu təcrübəni nəzərə alaraq Avropa İttifaqına daxil olmağın iqtisadi, siyasi və təhlükəsizlik baxımından daha əlverişli olduğuna inanır. Bu, Avropa modelinin bütün problemlərdən azad olduğu demək deyil; sadəcə, həmin ölkələr üçün inteqrasiyanın potensial üstünlükləri onun tələb etdiyi siyasi və hüquqi öhdəliklərdən daha əhəmiyyətli görünür.

Beləliklə, Qərbi Balkan artıq Avropanın kənarında gözləyən region kimi qiymətləndirilə bilməz. Bu ərazi Avropa İttifaqının gələcək geosiyasi arxitekturasının formalaşmasında mühüm rol oynayan siyasi məkana çevrilib. Monteneqronun 2028-ci ildə Aİ-nin 28-ci üzvü olmaq perspektivi reallaşarsa, bu, 2013-cü ildə Xorvatiyanın qəbulundan sonra İttifaqın ilk genişlənməsi olacaq. Eyni zamanda Albaniyanın 2027-ci il hədəfinə çatması Avropa inteqrasiyasının Balkanlarda yeni mərhələyə keçdiyini göstərə bilər. Lakin bu perspektivlərin reallaşması yalnız siyasi bəyanatlardan yox, konkret islahatların davamlılığından, üzv dövlətlərin razılığından və Avropa institutlarının hazırlığından asılıdır. Avropa İttifaqının qarşısında indi mühüm seçim dayanır: ya Qərbi Balkanı daha sürətlə öz siyasi, iqtisadi və təhlükəsizlik sisteminə inteqrasiya etmək, ya da üzvlük prosesinin ləngiməsi nəticəsində regionda geosiyasi rəqabətin daha da güclənməsi riskini qəbul etmək. Brüssel üçün genişlənmə artıq Avropanın beynəlxalq münasibətlərdəki mövqeyini, iqtisadi rəqabət qabiliyyətini, enerji və nəqliyyat təhlükəsizliyini, eləcə də gələcək nəsillər üçün siyasi sabitliyini müəyyənləşdirən strateji qərardır. Brexit Avropaya inteqrasiyanın alternativsiz olmadığını göstərdisə, Qərbi Balkanın bugünkü seçimi Avropa İttifaqının hələ də mühüm siyasi və iqtisadi cazibə mərkəzi olduğunu təsdiqləyir. Avropanın gələcək siyasi xəritəsi qarşıdakı illərdə məhz bu iki fərqli təcrübənin yaratdığı nəticələr əsasında formalaşacaq.



Kəramət QƏNBƏROV,
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressİnformMMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



Təhlükəsiz cəmiyyət qadına münasibətdən başlayır

“Qadın zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü”. Bu ifadəni ilk dəfə eşidənlər arasında bir anlıq tərəddüd yaşayanlar da ola bilər: Görəsən, burada söhbət qadınların törətdiyi zorakılıqdan gedir, yoxsa qadınların məruz qaldığı zorakılıqdan? Bu söz birləşməsi problemin düzgün qavranmamasına yol açır. Əslində, bu günün mahiyyəti tamamilə aydındır: söhbət qadınlara və qızlara qarşı törədilən zorakılığın aradan qaldırılmasından, onların həyat, azadlıq, təhlükəsizlik və ləyaqət hüquqlarının qorunmasından gedir - qadın zorakılığından deyil...

Hər il noyabrın 25-də qeyd olunan Qadınlara Qarşı Zorakılıqla Beynəlxalq Mübarizə Günü cəmiyyətə mühüm bir həqiqəti xatırladır: qadına qarşı zorakılıq şəxsi münasibətlərin arxasında gizlədilə biləcək məsələ deyil. Bu, insan hüquqlarının pozulması, ictimai təhlükəsizliyə və sosial ədalətə təhdiddir.



Zorakılığa bəraət qazandıran düşüncələr dəyişməlidir...

Zorakılığın görünməyən üzü

Zorakılıq dedikdə çoxlarının ağlına ilk növbədə fiziki xəsarətlər gəlir. Halbuki qadınlara qarşı zorakılıq bundan daha geniş anlayışdır. Bəzən onun izi bədəndə deyil, insanın ruhunda, özünəinamında, gələcəyə olan ümidində qalır.

Fiziki zorakılıqla yanaşı, psixoloji təzyiq, təhqir, təhdid, iqtisadi asılılıq yaratmaq, qadının işləməsinə və təhsil almasına mane olmaq, onu ailəsindən və dostlarından təcrid etmək də zorakılığın formalarıdır. Cinsi zorakılıq, məcburi nikah, erkən evlilik, insan alveri və rəqəmsal mühitdə təqib də bu problemin müxtəlif təzahürləridir.

Ən təhlükəli məqamlardan biri isə odur ki, bu halların bəziləri cəmiyyətin müəyyən təbəqələri tərəfindən hələ də “ailədaxili məsələ”, “ailənin öz işidir” kimi qiymətləndirilir. Halbuki heç bir ənənə, adət və ya ailə münasibəti insanın təhlükəsiz yaşamaq hüququnu əlindən ala bilməz. Bir sözlə “ailə məsələsidir” deyib susmaq problemin həlli deyil

Qadınlara qarşı zorakılığın ən ağrılı tərəflərindən biri onun çox zaman qapalı qapılar arxasında baş verməsidir. Qonşular eşidir, yaxınlar hiss edir, bəzən ailə üzvləri hər şeyi bilir, amma heç kim müdaxilə etməyə cəsarət etmir. “Ailə dağılmasın”, “uşaqlar atasız qalmasın”, “el-aləm nə deyər?” kimi düşüncələr qadınları susmağa məcbur edən görünməz maneələrə çevrilir. Bəzi qadınlar iqtisadi müstəqilliklərinin olmaması, uşaqlarının gələcəyi, sosial qınaq və təkrar zorakılıq qorxusu səbəbindən yaşadıqları barədə danışa bilmirlər. Lakin susmaq zorakılığı dayandırmır. Əksinə, zorakılıq törədən şəxsdə cəzasızlıq hissini gücləndirə bilər. Cəmiyyət anlamalıdır ki, zorakılığa məruz qalan qadına “niyə dözdün?” sualını verməkdənsə, “sənə necə kömək edə bilərik?” sualını vermək daha doğrudur.

Qapalı qapılar arxasında baş verənlər

Zorakılığın ən ağır nəticəsi: Gələcək nəsillərə ötürülən qorxu

Qadına qarşı zorakılıq yalnız bir insanın taleyinə təsir etmir. Bu, bütöv ailənin, xüsusilə də, uşaqların psixoloji dünyasında dərin izlər buraxır. Ailədə anasına qarşı zorakılığın şahidi olan uşaq sevgini, münasibətləri və ailə anlayışını yanlış nümunələr əsasında öyrənə bilər. Belə mühitdə böyüyən uşaqlarda qorxu, narahatlıq, özünəqapanma və davranış problemləri yarana bilər. Daha təhlükəlisi isə zorakılığın normal münasibət forması kimi qəbul edilməsidir.

Beləliklə, qadına qarşı zorakılığın qarşısının alınması yalnız qadınların müdafiəsi deyil, həm də sağlam düşüncəli, qarşılıqlı hörmətə əsaslanan gələcək nəslin yetişdirilməsi deməkdir.

Rəqəmsal dünya qadınlar üçün hər zaman təhlükəsiz deyil

Texnologiyanın inkişafı həyatımızı asanlaşdırsa da, zorakılığın yeni formalarının yaranmasına da şərait yaradıb. Sosial şəbəkələrdə təhqir, hədələmə, şəxsi foto və məlumatların icazəsiz yayılması, davamlı onlayn təqib, saxta hesablar vasitəsilə nüfuzdan salma cəhdləri qadınların üzləşdiyi rəqəmsal zorakılıq nümunələridir.

Bu hallar bəzən virtual mühitdə baş versə də, onların real həyatda yaratdığı psixoloji və sosial nəticələr kifayət qədər ağırdır. Deməli, qadınların təhlükəsizliyi dedikdə yalnız küçədə və ya evdə təhlükəsizlik deyil, internet məkanında da hüquqlarının qorunması nəzərdə tutulmalıdır.

Mübarizə yalnız qanunlarla deyil, düşüncə ilə başlanır

Qadınlara qarşı zorakılığın qarşısının alınması üçün qanunvericiliyin təkmilləşdirilməsi, hüquq-mühafizə və sosial xidmətlərin effektiv fəaliyyəti, sığınacaqların əlçatanlığı, hüquqi və psixoloji dəstəyin gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Lakin bütün bunlarla yanaşı, cəmiyyətin düşüncə tərzində də dəyişiklik baş verməlidir.

Oğlan uşaqlarına erkən yaşlardan hörmət, bərabərlik və məsuliyyət anlayışları aşılanmalı, qızların təhsil alması, işləməsi, müstəqil qərar verməsi dəstəklənməlidir. Məktəblərdə, ailələrdə və ictimai mühitdə zorakılığa dözümsüzlük mədəniyyəti formalaşdırılmalıdır.

Ən əsası, zorakılığa məruz qalan qadınlar günahlandırılmamalı, onların müraciətləri ciddi qəbul edilməli, müdafiə mexanizmləri real nəticə verməlidir. Zorakılığın qarşısının alınması yalnız qadınların deyil, kişilərin də məsuliyyətidir. Çünki qadın hüquqlarına hörmət etmək hər bir sağlam cəmiyyətin ortaq dəyəri olmalıdır. Bu baxımdan noyabrın 25-i sadəcə təqvimdə qeyd olunan əlamətdar tarix deyil. Bu gün qadınlara qarşı zorakılıqla bağlı susqunluğun pozulması, cəmiyyətin diqqətinin problemə yönəldilməsi və konkret addımların atılması üçün bir çağırışdır.

Qadınlara qarşı zorakılıqla mübarizə Azərbaycanda da dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Son illərdə bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi, zərərçəkənlərin müdafiə mexanizmlərinin gücləndirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və sosial dəstək xidmətlərinin təşkili istiqamətində bir sıra addımlar atılıb.

Bu istiqamətdə mühüm sənədlərdən biri 2010-cu ildə qəbul edilmiş “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunudur. Qanun məişət zorakılığının qarşısının alınması, zərərçəkənlərin müdafiəsi, onlara hüquqi və sosial yardım göstərilməsi üçün hüquqi əsaslar müəyyən edir.

Azərbaycanda atılan addımlar

Son illərdə bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi, zərərçəkənlərin müdafiə mexanizmlərinin gücləndirilməsi, maarifləndirmə tədbirlərinin genişləndirilməsi və sosial dəstək xidmətlərinin təşkili istiqamətində bir sıra addımlar atılıb. Bu istiqamətdə mühüm sənədlərdən biri 2010-cu ildə qəbul edilmiş “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunudur. Qanun məişət zorakılığının qarşısının alınması, zərərçəkənlərin müdafiəsi, onlara hüquqi və sosial yardım göstərilməsi üçün hüquqi əsaslar müəyyən edir.

2025-ci il yanvarın 27-də Prezident İlham Əliyev tərəfindən məişət zorakılığının qarşısının alınması ilə bağlı qanunvericiliyə dəyişikliklər təsdiqlənib. Yeniliklər arasında zərərçəkənlərin müdafiəsini gücləndirən mühüm mexanizmlər yer alır.

Belə ki, məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət əlamətləri olmadıqda belə baxılması proseduru təkmilləşdirilib. Qısamüddətli mühafizə orderinin 24 saat ərzində verilməsi, şikayətin isə beş gün müddətində araşdırılması nəzərdə tutulub. Zərərçəkənin müraciəti əsasında dinləmələrdə vəkilin və psixoloqun iştirakı da təmin edilir. Yetkinlik yaşına çatmayan və əlilliyi olan zərərçəkənlərin müdafiəsi üçün əlavə təminatlar müəyyənləşdirilib. Bu dəyişikliklər zorakılıqla üzləşən qadınların müraciətlərinə daha operativ baxılması və onların təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir.



Unutmayaq ki, qadının təhlükəsiz yaşamaq, sevmək, sevilmək, təhsil almaq, işləmək, sərbəst qərar vermək və öz həyatını qurmaq hüququ heç kimin icazəsindən asılı deyil.


Bir qadının qorxu içində yaşadığı evdə rahatlıqdan, təhqirə məruz qaldığı münasibətdə sevgidən, hüquqları əlindən alındığı cəmiyyətdə isə ədalətdən danışmaq mümkün deyil.

Zorakılığa son qoymaq üçün əvvəlcə ona bəraət qazandıran düşüncələrə son qoymaq lazımdır. Hər bir qadının qorxmadan yaşamaq, öz həyatını sərbəst qurmaq və ləyaqətlə rəftar görmək haqqı var.

Çünki qadının susduğu yerdə ədalət danışa bilməz. Zorakılığa qarşı ən güclü mövqe isə laqeyd qalmamaq, susmamaq və hər bir insanın təhlükəsiz yaşamaq hüququnu müdafiə etməkdir.

Yeganə BAYRAMOVA

Neptundan kənarda...



Yerdən iki dəfə böyük planet mövcud ola bilər

Günəş sisteminin ucqar hissəsində Yerdən təxminən iki dəfə böyük kütləyə malik naməlum planet mövcud ola bilər. Alimlər bu hipotetik planeti “X2 Planeti” adlandırıblar.

AZƏRTAC xəbər verir ki, bu barədə “ScienceAlert” nəşri məlumat yayıb. Bildirilib ki, Neptunun orbitindən kənarda yerləşən bəzi buzlu göy cisimlərinin qeyri-adi orbitlər üzrə hərəkəti alimlərin diqqətini cəlb edib. Tədqiqatçılar kompüter simulyasiyaları vasitəsilə müəyyən ediblər ki, bu hərəkətlər uzaq orbitdə yerləşən əlavə bir planetin cazibə qüvvəsi ilə bağlı ola bilər.

Hesablamalara əsasən, X2 Planetinin Günəşdən orta məsafəsi 350-500 astronomik vahid arasında dəyişə, onun Günəş ətrafında bir tam dövrü isə 6 min 500-11 min il çəkə bilər.

Alimlər vurğulayırlar ki, bu planet hələ birbaşa müşahidə edilməyib və onun mövcudluğu hazırda yalnız elmi fərziyyə olaraq qalır. Yeni müşahidələrin, xüsusilə Çilidəki Vera C.Rubin Rəsədxanasının əldə edəcəyi məlumatların bu ehtimalın yoxlanılmasına kömək edəcəyi gözlənilir.

Tədqiqatın nəticələri “Monthly Notices of the Royal Astronomical Society” jurnalında dərc olunub.

Avropa ölkələri hərbi sahədə süni intellektin tətbiqini gücləndirir

Fransa, Almaniya, İtaliya, Polşa və İsveç hərbi sahədə süni intellekt texnologiyalarının inkişafını və tətbiqini sürətləndirmək məqsədilə Beynəlxalq Müdafiə Süni İntellekt Mərkəzinin yaradılması layihəsinə qoşulub.



AZƏRTAC xəbər verir ki, bu barədə Fransanın Silahlı Qüvvələr və Veteranlar Nazirliyi məlumat yayıb.

Bildirilib ki, Fransanın Renn şəhərində keçirilən təsis konfransında Almaniya, İtaliya, Polşa və İsveç təşəbbüsə qoşulmaq niyyətlərini rəsmən açıqlayıb. Layihənin eyni məqsədləri bölüşən digər ölkələr üçün də açıq olduğu diqqətə çatdırılıb.

Renn şəhərində yaradılması nəzərdə tutulan mərkəz hərbi əməliyyatlarda süni intellektin tətbiqini sürətləndirməyi, beynəlxalq əməkdaşlığı genişləndirməyi, texnoloji yenilikləri izləməyi və əməliyyat təcrübəsinin paylaşılmasını təmin etməyi hədəfləyir. Təşəbbüs, həmçinin yeni texnologiyaların silahlı qüvvələrin real ehtiyaclarına uyğun inkişaf etdirilməsinə yönəlib.

Təsis konfransında mərkəzin fəaliyyət proqramı, “yol xəritəsi”, Renn şəhərində yerləşdirilməsi və iştirakçı ölkələrin üzvlük şərtləri müzakirə olunub. Növbəti mərhələdə Beynəlxalq Müdafiə Süni İntellekt Mərkəzinin təsis sənədlərinin hazırlanması nəzərdə tutulur.

Mərkəzin 2027-ci ildə tam əməliyyat imkanlarına çatması planlaşdırılır.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4336
Sifariş: 1552
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova